

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 20 (24.402)

25 may 2024-cü il, şənbə

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Möhtəşəm 100 gün




***Fevralın 14-də dövlətə və xalqa sədaqət andı içən cənab İlham Əliyevin növbəti müddət üçün prezidentlik fəaliyyətinə başlamasından 100 gün ötür. Yeni seçilmiş prezidentin fəaliyyətinin ilk 100 gününün nəticələri isə onun dövlət rəhbəri kimi missiyasının qiymətləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bu qiymətləndirmə istər dövlət, istərsə də hökumət başçısının gələcək fəaliyyətinin proqnozlaşdırılması ilə bağlı beynəlxalq praktikada öz təsdiqini tapmış mühüm politoloji yanaşma hesab olunur.***

***Etimadın təcəssümü***

Növbədənkənar prezident seçkiləri azad, ədalətli, şəffaf, demokratik meyarlar çərçivəsində keçirilməklə ölkəmizin tarixinə növbəti mühüm siyasi-tarixi hadisə kimi həkk olundu. Ən əsası bu seçkidə möhtərəm İlham Əliyevin növbəti inamlı qələbəsi, ölkə üzrə səsvermədə iştirak etmiş seçicilərin 92,12 faizinin səsini qazanması Azərbaycan xalqının hazırkı siyasi kursa, böyük Heydər Əliyev yoluna etimadının və sədaqətinin növbəti təcəssümünə çevrildi.

Növbədənkənar prezident seçkilərində Azərbaycan xalqının seçimini müəyyən edən, bu seçimin təməlində dayanan olduqca mühüm fundamental əsaslar var idi. Prezident cənab İlham Əliyevin respublikamıza rəhbərliyinin nəticəsi kimi 2003-2023-cü illərdə yaranmış bu əsaslar zəncirvari şəkildə bir-birini tamamlayaraq Azərbaycanın öz tarixinin ən qüdrətli dövləti səviyyəsinə yüksəlməsini şərtləndirib. Bu mənada olduqca qürurvericidir ki, artıq uzun illərdir, beynəlxalq miqyasda Azərbaycanın adı çəkiləndə Cənubi Qafqazda lider, dünyada söz sahibi kimi çıxış edən, qlobal məsələlərdə öz mövqeyi ilə fərqlənən, kosmik kluba daxil olan, tamamilə müstəqil siyasət yürüdən bir dövlət göz önündə canlanır. Bütün bu reallıqları təmin edən Prezident cənab İlham Əliyev isə öz əməlləri ilə xalqımızın qüruruna çevrilən siyasi liderdir, böyük şəxsiyyətdir.

Səhifə ⇨ 8

# Şərqi Zəngəzurda ucalan növbəti Böyük Qayıdış sədaları



Səhifə ⇨ 3



## “Azərbaycanda ətraf mühitin qorunmasında Ümummilli Lider Heydər Əliyevin rolu” mövzusunda konfrans keçirilib

***Mayın 20-də Batabat Astrofizika Rəsədxanasında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin, Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə “Azərbaycanda ətraf mühitin qorunmasında Ümummilli Lider Heydər Əliyevin rolu” mövzusunda konfrans keçirilib.***

Səhifə ⇨ 4


Naxçıvanın inkişafı Heydər Əliyev siyasətinin təntənəsidir 2

Ali Məclis 2023-cü il büdcəsinin icrasını birinci oxunuşda qəbul edib 7

Bir sözlə qaytarılan 4 kənd, yaxud Ali Baş Komandanın 100-cü gün töhfəsi 11

Azərbaycanın döyünən ürəyisən, Naxçıvanım! 15

Əlincəçay mahalının Xanəgahı... 16

# Naxçıvanın inkişafı Heydər Əliyev siyasətinin təntənəsidir




## Ulu Öndərin arzuladığı Naxçıvan

**Ümummilli Lider Heydər ƏLİYEV:**

***“İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin.”***

Ulu Öndər Heydər Əliyev böyük mütəfəkkirlərin, sərkərdələrin, dahilərin yurdu olan Naxçıvanın yetişdirdiyi şəxsiyyətlərin fövqündə dayanan əvəzolunmaz liderdir. O bütün həyatı boyunca Vətəninə, xalqına bağlılıq nümunəsi göstərib, ölkəmizin, o cümlədən doğulub boya-başa çatdığı Naxçıvanın inkişafı, yüksəlişi, təhlükəsizliyinin təmini üçün əlindən gələni əsirgəməyib. Ümummilli Liderin ən böyük arzusu doğma Naxçıvanı bugünkü kimi hərtərəfli inkişaf etmiş abad bir diyar kimi görmək idi.

Naxçıvan Muxtar Respublikasının inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərimiz ölkəmizə rəhbərlik etdiyi dövrlərdə, eləcə də SSRİ kimi nəhəng bir dövlətin rəhbərlərindən biri olanda daim Naxçıvanın hərtərəfli tərəqqisi, muxtariyyət statusunun qorunub saxlanılması və daha da möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. Respublikamıza ikinci dəfə rəhbərliyi illərində Ümummilli Liderimiz Naxçıvan Muxtar Respublikasından diqqət və qayğısını əsirgəmədi. 1969-cu ildən başlanan quruculuq və inkişaf xətti Naxçıvanda davam etdirildi.

Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi strateji hədəflər, inkişaf və tərəqqi proqramı uğurla həyata keçirilmiş, muxtar respublika Ulu Öndərimizin arzuladığı, görmək istədiyi kimi qurulmuşdur. Azərbaycan Prezidenti cənab İlham Əliyevin ardıcıl diqqət və qayğısı ilə Naxçıvan Muxtar Respublikası yeni hədəflərə doğru irəliləməkdə, Naxçıvanın daha parlaq gələcəyi üçün mühüm layihələr həyata keçirilməkdədir. İndi bu şəhərdə, Ulu Öndərimiz Heydər Əliyevin çox sevdiyi və bir vaxtlar çətin iş rejimində çalışdığı şəhərdə çox şey tanınmaz dərəcədə yaxşılığa doğru dəyişmiş və dəyişməkdədir. Bu, ilk növbədə, Ümummilli Liderimizin uzun illərə hesablanmış ideyalarının təntənəsidir.

Ötən əsrin 90-cı illərində çox mürəkkəb tarixi-siyasi şəraitdə Moskvadakı nəzarət və təqiblərdən yaxa qurtararaq öz xalqının köməyinə gələn görkəmli dövlət xadimi Heydər Əliyev Bakıda da dönük rəhbərlərdən soyuq münasibət gördükdə doğulduğu torpağa üz tutdu. Naxçıvanlılar Ulu Öndəri böyük səmimiyyət və ehtiramla qarşıladılar. Üstünü qara buludlar almış muxtar respublika əhalisi görkəmli dövlət xadiminin zəka və qüdrətinə sığındı. Naxçıvanlılar Ulu Tanrının xalqımızın xilası və nicatı üçün qoruyub saxladığı, taleyin bu qədim yurd yerinə göndərdiyi böyük rəhbərin ətrafında sıx birləşdi, onu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçdilər.

Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə Ümummilli Liderin reallaşdırdığı müdrik və qətiyyətli tədbirlər qısa müddətdə muxtar respublikanın etibarlı müdafiəsini təmin etdi, dövlət müstəqilliyi ilə bağlı qabaqlayıcı addımlar atıldı. Ümummilli Liderimiz bununla bağlı naxçıvanlılara xitabən deyirdi: ***“Mən 3 il Naxçıvanda yaşamağımı və sizinlə, muxtar respublikanın əhalisi ilə birlikdə işləməyi həyatımın, deyə bilərəm ki, ən parlaq, ən şərəfli bir dövrü hesab edirəm”.***

Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində mühüm yer tutan Heydər Əliyev epoxasının hər bir mərhələsi müasir tariximizin bütöv bir salnaməsini təşkil edir. Onun hər bir səhifəsi, hər bir sətri Ümummilli Liderimiz Heydər Əliyevin qüdrətli əlləri ilə yazılmışdır. Xalqımızın böyük oğlu özündən sonra gələcək nəsillər üçün çox zəngin irs qoymuşdur. Bu irs bütöv bir idarəçilik məktəbini, xalqımızın özünütəsdiq, həmrəylik və milli dövlətçilik şüurunu, çağdaş ictimai-siyasi fikrin ən ümdə keyfiyyətlərini özündə ehtiva edir.

Qətiyyətlə demək olar ki, müstəqil Azərbaycan dövləti məhz Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətinin birinci dövründə – 1969-1982-ci illərdə yaradılmış təməl üzərində qurulmuşdur. Görkəmli dövlət xadimi ilk dəfə respublikaya rəhbər seçiləndən sonra müasir sənaye komplekslərinin yaradılması, kənd təsərrüfatının, sənayenin, elmin, mədəniyyətin, incəsənətin inkişafı istiqamətində qətiyyətli addımlar atılmış, ölkəmiz sürətlə inkişaf edərək sovet ittifaqında ən qabaqcıl yerlərə çıxmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin dövrü belə dəyərləndirərək deyib: ***“Naxçıvanın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə, ona görə ki, Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyət Ulu Öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu Öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı”.***

Naxçıvanda milli ruhun, milli şüurun daşıyıcısı olan Azərbaycançılıq ideologiyası həmişə sədaqətlə yaşadılıb. Bu sadiqlik naxçıvanlılara həyatın bütün sahələrində uğurlar gətirib. Çətinliklərə sinə gərərək qurub-yaradıblar. Bugünkü Naxçıvan Ulu Öndərin arzuladığı Naxçıvandır. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 2023-cü il 30 dekabr tarixdə imzalanmış “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam dövlətçiliyimizin taleyüklü məsələlərinin həllini tapdığı, blokada şəraitində yaşayan Naxçıvana böyük diqqət və qayğının daha bir ifadəsidir. Sərəncamda deyilir: *“Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur.*

*Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mürəkkəb ictimai-siyasi proseslərinə həlledici təsir göstərmiş və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırmışdır”.*

Böyük şəxsiyyətlər tarixin müəyyən mərhələsində rol oynaya bilər, ancaq dahi şəxsiyyətlər təkcə rol oynamır, həm də bu tarixin yaradıcısına çevrilirlər. Təsadüfi deyil ki, xalqımızın Ümummilli Lideri səviyyəsinə yüksəlmiş Heydər Əliyev də əvəzolunmaz xidmətləri sayəsində ölkəmizi böyük bəlalardan xilas edərək onun müstəqilliyini təmin etmiş, Azərbaycanın dünya ölkələri sırasında layiqli yer tutmasına nail olmuşdur. Ulu Öndər Heydər Əliyev işlədiyi bütün dövrlərdə əsl lider kimi insanları öz ideya və baxışları ətrafında toplamış, zəngin təcrübəsi sayəsində idarəçilikdə ciddi uğurlara imza atmış, cəmiyyətin maraq və mənafelərini müdafiə etdiyi üçün xalqın dərin etimadını qazanmışdır.



Bu gün Azərbaycanın bütün bölgələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikası da Prezident cənab İlham Əliyevin müəyyənləşdirdiyi yeni inkişaf mərhələsinə qədəm qoyub. Ötən dövrdə əldə olunan uğurlu nəticələr bu gün artıq yeni idarəçilik metodları tətbiq olunmaqla davam etdirilir. Böyük Öndərin ***“İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”*** fikirləri bu gün qədim diyarın real həyatında öz əksini tapıb.

Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini Heydər Əliyev məktəbinin layiqli davamçısı olan Prezident cənab İlham Əliyevə əmanət etmişdir. Xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlar qazanır. Ötən hər gün Azərbaycanı daha böyük tərəqqiyə qovuşdurur.

Bu gün Azərbaycan Ulu Öndər Heydər Əliyevin yolu ilə inamla irəliləyir. Bu yolu davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düzgün, düşünülmüş siyasəti ölkəmizi uğurlardan uğurlara aparır. Bütün bu nailiyyətlərin təməlində isə Ümummilli Lider Heydər Əliyev yoluna sadiqlik və bu yolun uğurla davam etdirilməsi dayanır.

Düşmən qarşısında alınmaz qalaya çevrilmiş müasir Naxçıvanın hərtərəfli inkişafı müstəqillik dövrünün qiymətli quruculuq və dövlətçilik salnaməsidir. Bu inkişafın, sabitliyin və yüksək rifahın bir səbəbi var. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Naxçıvanda hər bir sahədə uğurlu inkişaf gedir, hər bir sahəyə böyük diqqət göstərilir. Bu məni çox sevindirir. Çünki bu Heydər Əliyev siyasətinin təntənəsidir”.***

**Ulu Öndər Heydər ƏLİYEV:**

***“Mən üç il Naxçıvanda yaşamağımı və sizinlə, muxtar respublikanın əhalisi ilə birlikdə işləməyimi həyatımın, deyə bilərəm ki, ən parlaq, ən şərəfli bir dövrü hesab edirəm.”***

**Səkinə MİRZƏYEVA**
***Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin müəllimi***

*Məqalə “Şərq qapısı” qəzetinin elan etdiyi “Naxçıvan 100 ildə” yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür*



# Şərqi Zəngəzurda ucalan növbəti Böyük Qayıdış sədaları

**Prezident İlham ƏLİYEV:**

“

***Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq - ən müasir, ən rahat, ən gözəl. Buranın təbiəti, gözəl mənzərələri, yaşıllıqlar, bulaqlar müasir və eyni zamanda ənənəvi üslubda inşa edilən binalarla tamamlanır. Elə bir gözəl şəhər yaradılır ki, əminəm, hər birimiz, hər bir azərbaycanlı bununla fəxr edəcək. Bir daha demək istəyirəm, biz azad edilmiş bütün torpaqlarda genişmiqyaslı proqramları icra edirik.***

”

Böyük Qələbədən sonra Qalib Liderimiz, cənab İlham Əliyev ölkəmizin yürütdüyü siyasi xəttin əsas hədəfləri sırasında Qarabağın, Şərqi Zəngəzurun bərpası, hərbi qüdrətin artırılmasını müəyyən etdi. Ötən qısa zaman kəsiyində regionda Azərbaycanın xeyrinə dəyişən geosiyasi mənzərə, qarşıya qoyulan həmin məqsədlərə heç bir güzəştə gedilmədən nail olunması bir daha göstərdi ki, Prezident cənab İlham Əliyev diplomatiyası, siyasi iradəsi dönməzdir, qətidir, alternativsizdir. Ötən həftə Şərqi Zəngəzurda, Zəngilanda, Cəbrayılda ucalan növbəti Böyük Qayıdış sədaları da bu iradənin, qətiyyətin davamlı təntənəsi kimi yaddaşlara yazıldı...

Mayın 18-də Prezident cənab İlham Əliyev Cəbrayıl rayonunun Böyük Mərcanlı, Karxulu, Sarıcallı, Maşanlı kəndlərinin, Zəngilan rayonunun Mincivan qəsəbəsinin, Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin təməlini qoydu. Eyni zamanda həmin gün dövlət başçısı və birinci xanım Zəngilan rayonunda “Ağalı” hotelinin, Zəngilan məscidinin açılışında iştirak etdilər, “AzərEnerji” ASC-nin “Zəngilan” və “Şayıflı” su elektrik stansiyaları istifadəyə verildi.





Ötən həftə atılan bu mühüm addımlardan yola çıxaraq Qarabağın, Şərqi Zəngəzurun bərpası barədə danışdıqda təbii olaraq Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunan “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icra əhəmiyyətini vurğulamalıyıq. Proqrama əsasən Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunan Böyük Qayıdış prosesləri göründüyü kimi artıq qısa zamanda reallığa çevrilir. Əgər bir neçə il öncə Zəngilanın Ağalı kəndi “Böyük Qayıdış”ın ilk müjdəsi idisə, artıq bu sıraya Füzulinin, Laçının, Şuşanın və digər işğaldan azad olunan yurd yerlərimizin qoşulması proqramın necə dəqiqliklə, müfəssəl hazırlandığını, sürətlə və ardıcıl şəkildə gerçəkləşdiyini göstərir...

Dövlət Proqramında təkcə soydaşlarımızın öz əzəli torpaqlarına, evlərinə qayıdışı nəzərdə tutulmur, eyni zamanda orada firavan yaşayışı, məşğulluğunun təminatı, eləcə də turistik, iqtisadi gəlirlik baxımından həmin yerlərin potensialından maksimum istifadə əsas hədəflər kimi müəyyənləşib. Ötən həftə istifadəyə verilən yeni obyektlər sırasında məxsusən “Ağalı” hotelini, “AzərEnerji” ASC-nin “Zəngilan” və “Şayıflı” su elektrik stansiyalarını bu baxımdan diqqətə çəkmək olar. Zəngilan şəhər mərkəzindən 20 kilometr məsafədə, Həkəri çayı vasitəsilə yaradılmış süni gölün sahilində yerləşən “Ağalı” hoteli həm coğrafi mövqeyi, həm də müasir şəraiti ilə istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar yaradacaq. Zəngilanda, Füzulidə tikilən, Laçında isə inşası davam etdirilən Beynəlxalq Hava limanlarının da azad ərazilərimizin turizm potensialının reallaşmasında və turistlərin cəlb olunması nöqteyi-nəzərindən mühüm rolunu vurğulamaq yerinə düşər. Rəqəmsal qaydada məlumatların axınının mərkəzə ötürülməklə yanaşı, məsafədən idarəedilməsinin təmin olunduğu “Zəngilan” və “Şayıflı” SES-lərdə isə “yaşıl enerji zonası” konsepsiyasına uyğun olaraq ekoloji cəhətdən təmiz enerji istehsal ediləcək. Bunun üçün mikro SCADA sistemi yığılıb, 25 kilometr məsafədə yüksəkgərginlikli yeni elektrik verilişi xətləri və 24 damarlı optik kabel xətti çəkilib. SES-lərdə il ərzində hər birində 30 milyon kilovat-saat olmaqla, ümumilikdə, 60 milyon kilovat-saat “yaşıl enerji” istehsal ediləcək və bununla da 14 milyon kubmetr qaza qənaət edilməklə yanaşı, atmosferə atılan karbon qazının ($CO_2$) həcmi 28 min ton azalacaq. Yeni stansiyalar Azərbaycanın Şərqi Zəngəzurun “yaşıl enerji zonası”na çevrilməsi prosesində növbəti uğurlu addımı ilə yanaşı, həm də ölkə Prezidentinin məskunlaşma və məşğulluq strategiyasına töhfə kimi böyük dəyərə malikdir...

Zəngilan məscidinin istifadəyə verilməsi mərasimi isə hər bir azərbaycanlını bir neçə il öncəyə, daha dəqiq desək, 44 günlük Vətən müharibəsi dövrünə apardı. Qandonduran həmin mənzərələr yenidən xatirələrdə canlandı. Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən tarixi Azərbaycan məscidində İslam dinində haram sayılan heyvanların saxlanması ilə bağlı yayılan videokadrlar və dövlət başçısının Zəngilan rayonuna səfəri zamanı erməni vandalizminin əyani təzahürü, insanlığa yaraşmayan, utancverici mənzərə barədə səsləndirdiyi qətiyyətli fikirlər: ***“...Amma baxın, görün, məscid olub bura, UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası, səssiz qalma, gəl gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan erməni olub. Özündən mədəni millət obrazı yaratmağa çalışan və bəzi xarici himayədarları tərəfindən belə qəbul edilən mədəni adam bunu edər? Mədəni adam məsciddə donuz saxlayar? Bütün dünya bunu görsün! O cümlədən dünya müsəlmanları görsünlər və müsəlman ölkələrinin xalqları görsünlər...”*** Bəli, 2021-ci il aprelin 26-dan cəmi 2 il sonra ölkə Prezidentinin də vəd etdiyi kimi, həmin ərazidə azan sədaları ucaldı. İşğal dövründə dağıdılmış tarixi Zəngilan şəhər məscidinin yanında yeni məscid istifadəyə verildi, ərazisində isə açıq səma altında sərgi yaradıldı. Beləcə, dağıdılmış ibadət yeri 30 ildir, xalqımızın heysiyyatı ilə oynayan, dini-mənəvi dəyərlərini məhv etməyə çalışanlara, erməni vəhşiliyi qarşısında lal sükuta qərq olan, bu vandalizm hərəkətlərini görməzdən gələnlərə tutarlı cavab, fundamental mənbə, muzey rolunu oynayacaq.

Ümumilikdə, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası çərçivəsində ötən həftə Şərqi Zəngəzurda istifadəyə verilən obyektlər və təməli qoyulan kəndlər əhəmiyyətliliyi ilə qayıdış prosesinin daha sürətləndirilməsinə yol açdı. Zəngilanda, Cəbrayılda tarixi kəndin, qəsəbənin təməlinin qoyulması təkcə bir yaşayış məntəqəsinin bərpası deyil, eyni zamanda tarixi ədalətin, milli-mənəvi dəyərlərin bərpası, yurd yerlərinə qayıdış isə bu dəyərlərə, adət-ənənələrə, insanlığa qayıdışdır. Gün ötdükcə daha da reallaşan bərpa, qayıdış prosesləri hər bir azərbaycanlının qəlbini fəxarət, qürur hissi ilə doldurur. Mayın 10-da Şuşaya ilk köç edən ailələrlə görüş zamanı dövlət başçısının da dediyi kimi: ***“Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq – ən müasir, ən rahat, ən gözəl. Buranın təbiəti, gözəl mənzərələri, yaşıllıqlar, bulaqlar müasir və eyni zamanda ənənəvi üslubda inşa edilən binalarla tamamlanır. Elə bir gözəl şəhər yaradılır ki, əminəm, hər birimiz, hər bir azərbaycanlı bununla fəxr edəcək. Bir daha demək istəyirəm, biz azad edilmiş bütün torpaqlarda genişmiqyaslı proqramları icra edirik”.***

**Nail ƏSGƏROV**

# “Azərbaycanda ətraf mühitin qorunmasında Ümummilli Lider Heydər Əliyevin rolu” mövzusunda konfrans keçirilib




*(əvvəli 1-ci səhifədə)*

Ümummilli Liderin anadan olmasının 101, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə, “Yaşıl dünya naminə həmrəylik ili”nə və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-a həsr olunmuş konfransda əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli hər kəsi salamlayıb və konfransın işinə uğurlar arzulayıb. Səlahiyyətli nümayəndə bildirib ki, Ümummilli Lider Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə ekoloji tarazlığın qorunması istiqamətində kompleks tədbirlər həyata keçirib, ətraf mühitin mühafizəsi sahəsində əsaslı dönüş yaradılıb. Görülən işlərin nəticəsi olaraq ölkəmizin zəngin flora və fauna müxtəlifliyi qorunub, təbii sərvətlərdən səmərəli istifadə prioritet məsələ kimi diqqətdə saxlanılıb. Ölkəmizdə bu sahədə fəaliyyəti tənzimləyən dövlət qurumları yaradılıb, eyni zamanda təkmil qanunvericilik bazası formalaşdırılıb. Azərbaycanın inkişaf konsepsiyasının müddəalarına uyğun olaraq iqtisadi inkişafın ekoloji tarazlıqla vəhdət təşkil etməsinə nail olunub. Bir sözlə, digər sahələrlə yanaşı, Ulu Öndərin ətraf mühitin mühafizəsi sahəsində formalaşdırdığı yeni ekoloji siyasət insanların sağlam ətraf mühitdə yaşamaq hüququnun tam təmin olunmasına zəmin yaradıb.

Görkəmli dövlət xadiminin ***“Təbiətə zərər vuranlar, ağac kəsənlər, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, həmunızın düşmənidir”*** fikirlərini xatırladan Fuad Nəcəfli diqqətə çatdırıb ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti, o cümlədən ekologiya sahəsində verdiyi tövsiyələr bu gün ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 25 dekabr tarixli Sərəncamına əsasən 2024-cü il ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. Həmçinin qeyd edib ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafına dair beş milli prioritetindən biri də “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” yanaşmasıdır. Həmin prioritetə uyğun olaraq ölkəmizdə ətraf mühitin sağlamlaşdırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi əsas hədəfdir. Artıq ölkə Prezidenti işğaldan azad edilmiş Qarabağı və Şərqi Zəngəzuru, eləcə də Naxçıvan Muxtar Respublikasını “yaşıl enerji zonası” elan edib, ekosistemin bərpasına, “ağıllı şəhər” və “ağıllı kənd” kimi innovativ yanaşmaların tətbiqinə başlanılıb.

Səlahiyyətli nümayəndə vurğulayıb ki, dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da qeyri-sabit hava şəraitinin hiss olunması iqlim problemləri ilə əlaqədar ölkə səviyyəsində tədbirlərin, o cümlədən elmi və praktiki konfransların keçirilməsini zəruri edir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 bu il ölkəmizdə keçiriləcək. Sözsüz ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi və beynəlxalq nüfuzu sayəsində Azərbaycan COP29 çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə işinə mühüm töhfələr verəcək. Bu gün Azərbaycan Prezidenti tərəfindən görülən işlər və ölkəmizdəki mövcud qanunvericilik sistemi ətraf mühitin mühafizəsi sahəsində sistemli tədbirlərin icrasına imkan verir. “Azərbaycanda ətraf mühitin qorunmasında Ümummilli Lider Heydər Əliyevin rolu” mövzusunda konfransda da ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərə bir daha diqqət yetiriləcək və yeni hədəflər müəyyənləşdiriləcək.

Fuad Nəcəfli dövlət başçımızın Azərbaycanda ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyət çərçivəsində Naxçıvanı “yaşıl enerji zonası” elan etdiyini diqqətə çatdıraraq vurğulayıb ki, bu istiqamətdə konkret layihələr icra olunacaq. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin rəhbərliyi ilə aid qurumlarla birlikdə 2024-cü ilin ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı müşavirə keçirilib, “Yaşıl dünya naminə həmrəylik ili” və COP29-la bağlı İşçi Qrupu yaradılıb və bu istiqamətdə tədbirlərə başlanılıb. Bugünkü konfransın da, bu mənada, mühüm əhəmiyyət kəsb etdiyini qeyd edən səlahiyyətli nümayəndə konfransın işinə uğurlar arzulayıb, təşkilatçılara və iştirakçılara təşəkkür edib, çıxışını Ümummilli Lider Heydər Əliyevin ***“Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız”*** fikirləri ilə bitirib.







Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev konfransın əhəmiyyətini önə çəkib. Qeyd edib ki, dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29-un ölkəmizdə keçirilməsi siyasi və digər istiqamətlərlə yanaşı, Azərbaycanın iqtisadi və turizm cəhətdən də daha geniş inkişafına töhfə verəcək. Rektor vurğulayıb ki, hazırda dünya ölkələrində sürətli şəhərləşmə prosesi gedir. Bu gün bu proses 50 faizdir. Aparılan müşahidələr göstərir ki, 2050-ci ildə şəhərləşmə 70 faizi ötəcək. Bu prosesin özü ilə gətirəcəyi fəsadların aradan qaldırılması üçün ekoloji tədbirlərin həcminin artırılması vacib əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda da ekosistemin qorunması və inkişafı prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Naxçıvanın ekoloji mühitinin daha geniş tədqiq olunmasının zəruriliyini irəli sürən Elbrus İsayev konfransın COP29 tədbirlərinə mühüm töhfə olacağını bildirib.

Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini, nazir vəzifələrini icra edən Xanlar Mustafayev ətraf mühitin mühafizəsi istiqamətində görülən işlərdən bəhs edərək bildirib ki, Naxçıvanda 1 milli park, 3 dövlət təbiət yasaqlığı mövcuddur. Bu da muxtar respublika ərazisinin 149 min hektara yaxınını və ya 28 faizini təşkil edir. Azərbaycan Respublikasının “Qırmızı Kitab”ına salınmış Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan 211 flora, 131 fauna növləri Xüsusi Mühafizə Olunan Təbiət ərazilərində qorunur. Xanlar Mustafayev diqqətə çatdırıb ki, bu gün dünyada iqlim dəyişikliyi, ətraf mühitin mühafizəsi və “yaşıl enerji”yə keçid ən mühüm prioritetlərdəndir. Azərbaycan baza ili ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürüb. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir. Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli”, 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasında ağacəkmə aksiyaları keçirilir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi bu aksiyaların keçirilməsində əsas məqsəd ölkədə ekoloji tarazlığın qorunması və ətraf mühitin sağlamlaşdırılmasına töhfə vermək, Ulu Öndərin əziz xatirəsini yad etmək, dahi şəxsiyyətin yaşıllaşdırma ənənələrini davam etdirmək, insanlar arasında ekoloji mədəniyyəti, təbiətə olan qayğı hissini təbliğ etməkdir.

Azərbaycan Respublikası Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev bildirib ki, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində mühüm addımlar atılır. “Yaşıl dünya naminə həmrəylik ili” qarşıya ətraf mühitlə, yaşıl inkişafla bağlı yeni gündəlik qoyub. Bu gün hər bir vətəndaşın, hər bir sahənin qarşısında dayanan əsas vəzifə bu vacib aksiyalara dəstək olmaqdır. Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası da bu sahədə fəaliyyətini genişləndirərək ətraf mühitin qorunması istiqamətində həyata keçirilən təbirlərdə yaxından iştirak edir, ağacəkmə aksiyalarına qoşulur.

Konfransda AMEA-nın müxbir üzvü, Torpaqşünaslıq və Aqrokimya İnstitutunun baş direktoru Əlövsət Quliyev “Naxçıvan Muxtar Respublikasında ətraf mühitin mühafizəsində torpaq və su ehtiyatlarından səmərəli istifadə”, Naxçıvan Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru, biologiya üzrə fəlsəfə doktoru Elsevər Əsədov “Heydər Əliyev və Azərbaycan təbiəti”, Naxçıvan Dövlət Universitetinin Əczaçılıq və biokimya kafedrasının professoru, AMEA-nın həqiqi üzvü Tariyel Talıbov “Naxçıvan Muxtar Respublikasının nadir, endemik və qiymətli nümunələri” və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Tural Əsgərov “Ətraf mühitin mühafizəsi və tullantıların düzgün istifadə olunması sahəsində görülən işlər” mövzularında məruzələr ediblər.

Tədbir bədii hissə ilə davam edib. Naxçıvan Dövlət Universiteti Musiqi Kollecinin sazçalanlar ansamblı aşıq mahnıları ifa ediblər.

Sonra akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının Batabat ərazisində yaşıllaşdırma aksiyası keçirilib. Səlahiyyətli nümayəndə universitetin könüllü tələbələri ilə ağac əkib. Əkin zamanı ərazinin iqlim şəraitinə uyğun olan kol bitkilərinin toxumlarından da istifadə edilib.

Fuad Nəcəfli könüllü tələbələrlə xatirə fotosu çəkdirib. Tələbələr “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunmuş plakatlar nümayiş etdiriblər.

Konfrans çərçivəsində Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin müəllim və tələbələri Batabat yaylağının əsrarəngiz təbiətinə dair etüd təşkil ediblər.

Konfrans çərçivəsində könüllü tələbələrin iştirakı ilə Batabat ərazisində təmizlik aksiyası da keçirilib.






# Azərbaycan rəsmiləri Çində səfərdədirlər

Mayın 21-dən başlayaraq Çinin Chongqing şəhərində dünyanın 26 ölkəsinin 40 şəhərindən olan nümayəndələrin iştirakı ilə Chongqing Beynəlxalq Dostluq Şəhərləri Əməkdaşlıq Konfransı-2024 keçirilir. Beynəlxalq Bioloji Müxtəliflik Günü münasibətilə təşkil olunan konfrans “Biomüxtəlifliyin Qorunması üzrə Beynəlxalq Dost Şəhərlər Əməkdaşlıq Təşəbbüsü”nə birgə başlamağa və dostluq şəhərlərin əməkdaşlığı vasitəsilə biomüxtəlifliyin qorunması üzrə qlobal səylərə töhfə vermək məqsədi daşıyır. Tədbir dialoqlar, fikir mübadiləläri və qarşılıqlı müzakirələr şəklində təşkil edilib.

Konfransa qatılan Azərbaycan nümayəndə heyətinin tərkibində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli və Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini, icra hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Əhməd Vəliyev də təmsil olunublar.

## Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin yaradılması və fəaliyyətinin təşkili barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, muxtar respublikada su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetməni təkmilləşdirmək, su ehtiyatlarından səmərəli istifadə etmək, torpaqların meliorasiyası və irriqasiyası işlərinin təşkilini yaxşılaşdırmaq məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin əsasında Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyi (bundan sonra – Agentlik) yaradılsın.

2. "Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. "Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin strukturu" təsdiq edilsin (əlavə olunur).

4. Agentliyin Aparatının işçilərinin say həddi 44 ştat vahidi müəyyən edilsin.

5. Agentliyin tabeliyində "Su Meliorasiya Xidməti" publik hüquqi şəxsi yaradılsın.

6. Bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

6.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə:

6.1.1. yenidən təşkili və ləğv edilməsi;

6.2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə:

6.2.1. nizamnamənin təsdiqi;

6.2.2. nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

6.3. Agentliyə:

6.3.1. bu Fərmanın 6.1-ci və 6.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

7. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

7.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

7.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin edib iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

7.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinə məlumat versin;

7.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 20 may 2024-cü il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 20 may tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyi haqqında

## Ə S A S N A M Ə

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyi (bundan sonra – Agentlik) Naxçıvan Muxtar Respublikasında suyun mənbədən götürülməsi, emalı, nəqli və təchizatı sahəsində fəaliyyətin təmin edilməsi, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarı, eləcə də bu sahədə xidmətlər göstərilməsinin təşkili, balansında olan su təsərrüfatı obyektlərinin texniki vəziyyətinə müntəzəm nəzarətin həyata keçirilməsi, Naxçıvan Muxtar Respublikasında yerüstü, yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqinin aparılması sahələrində (bundan sonra – müvafiq sahə) dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentlik müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, kargüzarlıq xidmətinin gerbsiz möhürünə, müvafiq ştamplara və blanklara malikdir.

1.5. Agentliyin saxlanılması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Naxçıvan Muxtar Respublikasının büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Agentlik Naxçıvan şəhərində yerləşir.

### 2. Agentliyin fəaliyyət istiqamətləri

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşmasında iştirak etmək və onun həyata keçirilməsini təmin etmək;

2.1.2. müvafiq sahədə dövlət tənzimləməsini və əlaqələndirməni həyata keçirmək;

2.1.3. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirmək;

2.1.4. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.5. Naxçıvan Muxtar Respublikasının ərazisində su təhlükəsizliyinin təmin edilməsi məqsədilə tədbirlər görmək;

2.1.6. tabeliyindəki qurumların balansında olan su təsərrüfatı obyektlərinin təhlükəsiz istismarının və etibarlı mühafizəsinin təmin edilməsi ilə bağlı tədbirlər görmək və onların texniki vəziyyətinə müntəzəm nəzarəti həyata keçirmək;

2.1.7. Naxçıvan Muxtar Respublikasının ərazisində yerüstü, yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqini həyata keçirmək;

2.1.8. su obyektlərinin istifadəsi və mühafizəsi üzərində dövlət nəzarətini həyata keçirmək;

2.1.9. suvarılan torpaqların meliorativ vəziyyətini yaxşılaşdırmaq məqsədilə meliorasiya sahəsində xidmətləri inkişaf etdirmək, eləcə də suvarılan torpaqların meliorativ vəziyyəti üzərində nəzarəti həyata keçirmək;

2.1.10. su ehtiyatlarından səmərəli, qənaətlə istifadə olunması və su itkisinin azaldılması sahəsində tədbirləri müəyyənləşdirmək və onların həyata keçirilməsini təşkil etmək;

2.1.11. su ehtiyatlarının inteqrasiyalı idarə olunmasını təşkil etmək;

2.1.12. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

### 3. Agentliyin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən su və su təsərrüfatı obyektlərində, hidrotexniki qurğularda və su təchizatı sistemlərində monitorinqlərin aparılmasını, aidiyyəti dövlət orqanı ilə birlikdə dövlət su kadastrının, habelə yerüstü və yeraltı suların dövlət uçotunun aparılmasını təmin etmək;

3.1.2. su obyektlərindən təyinatına görə istifadə edilməsinə dair monitorinq aparmaq;

3.1.3. suların vəziyyətinə zərərli təsir edən texniki qurğuların, avadanlıqların, müəssisələrin (və ya onların bir hissəsinin) və digər obyektlərin istismara buraxılmasının qadağan edilməsi barədə, habelə onların istismarının məhdudlaşdırılması, dayandırılması və fəaliyyətinin qadağan edilməsi ilə bağlı təkliflər vermək;

3.1.4. qanunla nəzərdə tutulmuş hallarda və qaydada su obyektlərinin, o cümlədən içməli su təchizatı mənbələrinin, sanitariya mühafizə zonaları və dairələrinin rejiminin təyin edilməsi, tabeliyindəki qurum vasitəsilə su təchizatı və kanalizasiya sistemi obyektlərində qanunla nəzərdə tutulmuş sanitariya mühafizə zonalarının yaradılması və ona nəzarətin həyata keçirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.5. su mühafizə zonalarının, sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və onlardan istifadə qaydasının müəyyən edilməsi ilə bağlı aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə müvafiq tədbirləri həyata keçirmək;

3.1.6. yeraltı və yerüstü suların zərərli təsirinin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə tədbirlər planı hazırlamaq və həyata keçirilməsini təmin etmək;

3.1.7. təbii fəlakət və texnogen qəzalar nəticəsində zədələnmiş və ya sıradan çıxmış su təsərrüfatı obyektlərinin bərpasına dair təkliflər hazırlamaq, sel və daşqın nəticələrinin aradan qaldırılması üçün su və su təsərrüfatı obyektlərinin tikintisi (bərpası) işlərinin həyata keçirilməsini təşkil etmək;

3.1.8. su təsərrüfatı tədbirlərini və su ehtiyatlarına perspektiv tələbatı müəyyən etmək, su obyektlərinin mühafizəsini və onlardan səmərəli istifadəni təmin etmək məqsədilə aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə su ehtiyatlarından kompleks istifadə və həmin obyektlərin mühafizəsi baş sxemini, hövzə və ərazi sxemlərini hazırlamaq;

3.1.9. sudan qənaətlə istifadə olunması, o cümlədən itkilərin qarşısının alınması və içməli suyun keyfiyyətinin texniki normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğunlaşdırılması ilə bağlı tədbirlər görmək;

3.1.10. tabeliyindəki qurumların balansında olan meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması obyektlərinin işlək vəziyyətdə saxlanılması üçün tədbirlər görmək;

3.1.11. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

3.1.12. su mühafizə zonalarındakı torpaqlardan istifadəyə qanunla nəzərdə tutulmuş qaydada razılıq vermək və bu ərazidəki fəaliyyətə nəzarəti təşkil etmək;

3.1.13. hidrotexniki qurğuların təhlükəsizliyinə təsir edən tikinti fəaliyyətini və konservasiya işlərini dayandırmaq barədə təkliflər vermək;

3.1.14. su obyektlərinin, hidrotexniki qurğuların və su təchizatı sistemlərinin təhlükəsizliyini təmin etmək məqsədilə həmin obyektlərdən (onların bir hissəsindən) istifadənin məhdudlaşdırılması, dayandırılması və qadağan olunması üçün tədbirlər görmək;

3.1.15. dövlət uçotuna alınacaq su istifadəçilərinin siyahısını tərtib etmək;

3.1.16. su obyektlərinin istifadəçiləri və su istehlakçıları tərəfindən su obyektlərindən götürülən və onlara axıdılan suların uçotunun aparılmasına nəzarət etmək və bu məqsədlə istifadə olunan avadanlıq və cihazların vəziyyətinə dair aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə monitorinq aparmaq;

3.1.17. su obyektlərinin təyinatından asılı olaraq, suyun tələbata uyğun paylaşdırılması üçün tədbirlər görmək;

3.1.18. su ehtiyatlarından istifadə sahəsində proqnoz və layihələr hazırlamaq;

3.1.19. su obyektləri üzrə xüsusi suburaxma, çaylardan sel və daşqın sularının axıdılma və su anbarlarının doldurulub-boşaldılma rejimlərini aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə müəyyən etmək;

3.1.20. suların axım rejiminə, keyfiyyətinə və istifadəsinə dair məlumatların toplanılmasını və təhlilini təmin etmək;

3.1.21. təbii fəlakət və texnogen qəzalar nəticəsində su obyektlərində, meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərində baş vermiş qəzaların səbəblərinin müəyyənləşdirilməsində və bu qəzalar nəticəsində dəymiş zərərin qiymətləndirilməsində, habelə bərpa və yenidənqurma işlərinin təşkilində iştirak etmək;

3.1.22. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq, ərazi planlaşdırılması sənədlərinə dair rəy vermək;

3.1.23. aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə ölkə, su hövzələri və inzibati ərazi vahidləri üzrə su təsərrüfatı balanslarının hazırlanmasını təmin etmək;

3.1.24. meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin dayanıqlı fəaliyyətini təmin etmək məqsədilə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq, tikintiyə icazə verilməsinə dair rəy vermək, tabeliyindəki qurum vasitəsilə tikinti obyektlərinin istismarına icazə üçün istismara hazır olması barədə sənədlər vermək;

3.1.25. daşqın və subasma zonalarının müəyyənləşdirilməsində iştirak etmək;

3.1.26. sulardan istifadə və onların mühafizəsi sahəsində qanunla müəyyən edilmiş tələbləri pozan şəxslərə qarşı qanunla müəyyən edilmiş tədbirlər görmək;

3.1.27. müvafiq sahədə "Coğrafi İnformasiya Sistemi"nin (GİS) formalaşdırılmasını, aparılmasını və təkmilləşdirilməsini həyata keçirmək;

3.1.28. su ehtiyatlarının idarə edilməsi sahəsində müasir metodların tətbiqi üçün tədbirlər görmək;

3.1.29. transsərhəd su obyektlərinin, hidrotexniki qurğuların, meliorasiya və irriqasiya sistemlərinin dövlətlərarası birgə istismarının təmin edilməsi üçün tədbirlər görmək;

3.1.30. transsərhəd su obyektlərindən, hidrotexniki qurğulardan, meliorasiya və irriqasiya sistemlərindən istifadə sahəsində beynəlxalq müqavilələrin layihələrinin hazırlanmasında iştirak etmək;

3.1.31. sudan ödənişli istifadənin həyata keçirilməsini təşkil etmək;

3.1.32. qanunla nəzərdə tutulmuş qaydada su obyektlərindən balıqçılıq üçün istifadəyə razılıq vermək, sututarları və ya onların müəyyən hissələrini idman və həvəskar balıq və digər su bioresurslarının ovu üçün ayırmaq;

3.1.33. xüsusi qorunan su obyektlərinin ölkə, bölgə və yerli əhəmiyyətli xüsusi qorunan su obyektlərinə aid edilməsi barədə təkliflər vermək;

*Ardı 6-cı səhifədə*

3.1.34. meliorasiya, irriqasiya, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin pasportlaşdırılmasını həyata keçirmək və kadastrını aparmaq;

3.1.35. hidrotexniki qurğuların dövlət reyestrini aparmaq;

3.1.36. dövlət mülkiyyətində olan meliorasiya, irriqasiya, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması, qış otlaqlarının su təminatı sistemlərinin istismarını, sel və daşqınlara qarşı mübarizə tədbirlərini, eləcə də bu sahədə xidmətlər göstərilməsini təşkil etmək;

3.1.37. Sudan İstifadəedənlər Birliklərinin (bundan sonra – Birliklər) xidmət göstərdiyi ərazidə yerləşən torpaqların istifadəçiləri istisna olmaqla, mülkiyyət formasından asılı olmayaraq torpaq istifadəçilərinin və uzunmüddətli sazişlərə uyğun olaraq Birliklərin suvarma suyu ilə təchizatını tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.38. Birliklərin istifadəsində olan sistemlər istisna olmaqla, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.39. "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Birliklərin reyestrini aparmaq və onların fəaliyyətinə dövlət nəzarətini tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.40. meliorasiya və irriqasiya sahəsində proqramlar hazırlamaq və həyata keçirmək;

3.1.41. su və su təsərrüfatı obyektlərindən götürülən suların bölüşdürülməsini və sudan istifadəyə nəzarəti həyata keçirmək;

3.1.42. suvarılan və meliorasiya olunmuş torpaqların uçotunu tabeliyindəki qurum vasitəsilə təşkil etmək və monitorinqini aparmaq;

3.1.43. meliorasiya və irriqasiya sistemlərinin layihələrinin dövlət ekspertizasını həyata keçirmək;

3.1.44. suvarılan və meliorasiya olunmuş torpaqların vəziyyətinə, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarına nəzarəti tabeliyindəki qurumlar vasitəsilə həyata keçirmək;

3.1.45. tabeliyindəki qurumların balansında olan meliorasiya və su təsərrüfatı obyektləri boyunca qoruyucu meşə zolaqlarının salınmasını, onların saxlanılmasını və qorunmasını təmin etmək;

3.1.46. sudan istifadə ilə bağlı dövlət tənzimləməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşdırılmasında iştirak etmək və bu sahədə təkliflər vermək;

3.1.47. qanunla nəzərdə tutulmuş qaydada tullantı sularının axıdılması üçün su obyektlərindən istifadə edilməsinə razılıq vermək və ya tərkibində çirkləndirici maddələrin miqdarı normadan artıq olan tullantı sularının su obyektlərinə axıdılmasını məhdudlaşdırmaq, dayandırmaq və ya qadağan etmək;

3.1.48. sanitariya, hidrotexniki və meliorasiya tədbirlərinin görülməsi halları istisna olmaqla çaylarda, çay qollarında, meliorasiya və irriqasiya sistemlərində qalaqların yaradılmasının, su axımının qarşısının özbaşına kəsilməsinin və göllərdən su buraxılmasının qarşısının alınması üçün tədbirlər görmək;

3.1.49. suvarma sistemləri üzrə sudan istifadəyə dair ümumsistem planlarını təsdiq etmək;

3.1.50. müəyyən müddət üçün sudan istifadə limitlərini tabeliyindəki qurum vasitəsilə müəyyən etmək, qanunla müəyyən edilmiş hallarda və qaydada su ehtiyatlarından istifadəyə icazə vermək;

3.1.51. su obyektlərindən istifadə və onların mühafizəsi qaydalarına, sudan istifadə limitlərinə, su obyektlərindən istifadə və onların mühafizəsi sahəsində sanitariya-gigiyena, ekoloji, hidrogeoloji, hidroloji, texnoloji tələbləri nəzərdə tutan normativ hüquqi aktlara, su mühafizə zonalarının ərazisindən istifadə rejiminə və Azərbaycan Respublikasının su qanunvericiliyinin digər tələblərinə riayət edilməsinə dövlət nəzarətini həyata keçirmək;

3.1.52. su təchizatı üçün suyun mənbədən götürülməsi, emalı, nəqli və satışı sahəsində fəaliyyəti təşkil etmək;

3.1.53. yağış və tullantı sularının toplanması, təmizlənməsi, təkrar istifadəsi, kənarlaşdırılması sahəsində fəaliyyəti tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.54. müvafiq sahədə əlverişli investisiya mühitinin yaradılması üçün təkliflər vermək;

3.1.55. müvafiq sahədə dövlət proqramlarının hazırlanmasında iştirak etmək;

3.1.56. müvafiq sahənin sosial-iqtisadi inkişafının əsas istiqamətlərinə uyğun proqnoz və layihələrin hazırlanmasını təşkil etmək;

3.1.57. müvafiq sahə üzrə tövsiyə xarakterli metodiki sənədlər hazırlamaq və onları təsdiq etmək;

3.1.58. müvafiq sahə üzrə statistik uçotun aparılmasını təmin etmək;

3.1.59. müvafiq sahə üzrə peşə və kadr hazırlığı, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.1.60. müvafiq sahəyə ayrılan büdcə vəsaitlərindən, kreditlərdən, qrantlardan və qanunla qadağan olunmayan digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.61. qanunvericilikdə müəyyən edilmiş qaydada malların alınması, xidmətlərin göstərilməsi, işlərin görülməsi üçün dövlət satınalmalarının təşkilini həyata keçirmək;

3.1.62. müvafiq sahədə elektron xidmətlərin təşkilini təmin etmək;

3.1.63. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.64. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.65 dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.66. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.67. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.68. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.1.69. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.70. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Agentliyin hüquqları**

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

4.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.1.2. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarından, hüquqi və fiziki şəxslərdən zəruri məlumatların alınması barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.3. müvafiq sahəyə investisiyaların cəlb olunması üçün aidiyyəti üzrə təkliflər vermək;

4.1.4. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

4.1.5. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.6. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Agentliyin fəaliyyətinin təşkili**

5.1. Agentliyin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair) Agentliyin vahid sistemini təşkil edir. Agentlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Agentliyin strukturunu, Agentliyin Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say həddini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri müəyyən edir. Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Agentliyin fəaliyyətinə Azərbaycan Respublikasının Konstitusiyasının 139-cu maddəsinin I hissəsinin 5-ci bəndinə, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndinə və 5-ci maddəsinin II hissəsinin 7-ci bəndinə əsasən vəzifəyə təyin və vəzifədən azad olunan sədr rəhbərlik edir. Agentliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün sədr şəxsən məsuliyyət daşıyır.

5.4. Sədrin Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 2 (iki) müavini vardır. Sədrin müavinləri sədrin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Sədr:

5.5.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Agentliyin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Agentliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələri Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən hüquqi şəxslər istisna olmaqla) nizamnamələrini (və ya əsasnamələrini) təsdiq edir, həmçinin bu Əsasnamənin 5.11-ci bəndində Agentliyin Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;

5.5.4. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların strukturunu, ştat cədvəlini, ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində onların gəlir və xərclər smetasını təsdiq edir;

5.5.5. Agentliyin Aparatının işçilərini, habelə Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini, onların müavinlərini və Sədr tərəfindən təsdiq edilmiş kadr nomenklaturası üzrə digər işçiləri vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.6. Agentliyin işçilərinə, strukturuna daxil olan qurumların rəhbərlərinə və onların müavinlərinə qanunla müəyyən edilmiş qaydada dövlət qulluğunun ixtisas dərəcələrini verir, habelə xüsusi fərqlənmiş əməkdaşlara Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət mükafatları ilə təltif olunması üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdimat verir;

5.5.7. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin sərəncamçısı olaraq maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla Agentlik işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.8. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

5.5.9. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Agentlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.10. Agentliyin fəaliyyət istiqamətləri üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar vəsaitin formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.11. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir.

5.6. Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

5.7. Sədr öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti olaraq icrasını müavinlərindən birinə həvalə edə bilər.

5.8. Agentlikdə sədrdən (Kollegiyanın sədri), sədrin müavinlərindən və Agentliyin digər rəhbər işçilərindən ibarət tərkibdə Kollegiya yaradılır. Agentliyin Kollegiyasının tərkibinə, həmçinin mütəxəssislər və alimlər də daxil edilə bilərlər.

5.9. Agentliyin Kollegiyasının üzvlərinin sayını və tərkibini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.10. Agentliyin Kollegiyası öz iclaslarında Agentliyin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

5.11. Agentliyin Kollegiyası qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.11.1. Agentliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktları;

5.11.2. qəbul edilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi və ya Nazirlər Kabineti tərəfindən Agentliyə tapşırılmış konkret normativ hüquqi aktları;

5.11.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktları;

5.11.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktları;

5.11.5. sədrin təşəbbüsü ilə Agentliyin Kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 5.5.3-cü yarımbəndində nəzərdə tutulan normativ hüquqi aktları;

5.11.6. bu Əsasnamənin 5.11.1-5.11.5-ci yarımbəndlərinə uyğun olaraq Agentliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktları ləğv edən və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları.

5.12. Agentliyin Kollegiyasının iclasları Kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Agentliyin Kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Agentliyin Kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, Kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Agentliyin Kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda, sədr bu barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat verərək öz qərarını həyata keçirir. Agentliyin Kollegiyasının üzvləri şəxsi fikirlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

5.14. Agentliyin Kollegiyasının iclaslarına digər dövlət orqanlarının (qurumlarının), habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilərlər.

5.15. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Agentlikdə ictimai əsaslarla fəaliyyət göstərən elmi-texniki şura yaradıla bilər.

5.16. Agentlikdə, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin öz sahibkarlıq fəaliyyəti ilə bağlı Agentliyin və ya onun struktur (yerli) qurumlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərinə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 20 may tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin

## STRUKTURU

Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin Aparatı (şöbələr və sektorlar)

# “Naxçıvan Muxtar Respublikasının səhiyyə sistemində görülən işlər və qarşıda duran vəzifələr” mövzusunda konfrans keçirilib





Mayın 22-də Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 və Naxçıvan səhiyyəsinin 100 illiyi münasibətilə “Naxçıvan Muxtar Respublikasının səhiyyə sistemində görülən işlər və qarşıda duran vəzifələr” mövzusunda konfrans keçirilib.

Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev və konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, önünə güllər düzüb, xatirəsinə ehtiramlarını bildiriblər.

Ardınca Heydər Əliyev Muzeyi ziyarət edilib, Ümummilli Liderin mənalı ömür yolunu, çoxşaxəli fəaliyyətini əks etdirən dəyərli eksponatlarla tanışlıq olub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Uşaq Xəstəxanasının fəaliyyəti ilə maraqlanıb, xəstəxanada yeni yaradılan Təcili Tibbi Yardım Bölməsinə baxıblar. Bildirilib ki, bölmə funksional çarpayılar, xəstəbaşı monitorlar, infuzomatlar, perfuziya aparatı ilə təmin edilib. Burada xəstələrin yaşıl, sarı və qırmızı sahələr üzrə triaj sistemi tətbiq edilir.

Sonra Naxçıvanda yeni yaradılan Təcili Tibbi Yardım Mərkəzinin fəaliyyəti ilə tanışlıq olub. Mərkəzdə qurulan müasir sistemlə bağlı məlumat verilib ki, muxtar respublika üzrə fəaliyyət göstərən təcili tibbi yardım avtomobilləri daxili və xarici müşahidə kameraları və GPS sistemi ilə təchiz edilib. Modern texniki və tibbi avadanlıqlarla tam təchiz olunmuş reanimobillər təcili tibbi yardımın işinin təşkilində xidmətin keyfiyyətini artıracaq. Mərkəzdə fəaliyyət göstərən “103 Çağrı Mərkəzi”ndə quraşdırılan proqram təminatı vahid koordinasiya mərkəzindən idarəolunmanı təmin edib. Yeni sistem vasitəsilə real vaxt rejimində təcili tibbi yardım avtomobillərinin hərəkətinə onlayn xəritə və canlı video vasitəsilə nəzarət etməyə imkan yaradır.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Xəstəxanasının tam avtomatlaşdırılmış rejimdə fəaliyyət göstərən beynəlxalq akkreditasiyalı laboratoriyası ilə tanışlıq zamanı qeyd edilib ki, burada klinik laborator diaqnostikasının bütün sahələri üzrə keyfiyyətli və dəqiq xidmət göstərilir.

Xəstəxananın Təcili Tibbi Yardım Şöbəsində aparılan yenidənqurma işləri barədə məlumat verilib ki, xidmət xəstələrin vəziyyətinə görə təcili yardımın müvafiq 3 sahəsinə uyğun təşkil edilib və uyğun tibbi avadanlıqlarla təchiz olunub. Həmçinin xəstəxanada müxtəlif tibbi profilli təlimlərin keçirilməsi məqsədilə 60 və 15 nəfərlik olmaqla müasir təchizatlı 11 təlim-treninq otağı yaradılıb. Treninq otaqlarına şəhid olmuş tibb işçilərinin adları verilib.

Sonra xəstəxananın konfrans zalında “Naxçıvan Muxtar Respublikasının səhiyyə sistemində görülən işlər və qarşıda duran vəzifələr” mövzusunda konfrans öz işinə başlayıb.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təqdim etdiyi videoçarxa baxış olub.

Konfransın Azərbaycanın müstəqillik və dövlətçilik tarixində müstəsna yeri olan 28 May – Müstəqillik Günü ərəfəsində keçirildiyini deyən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli əlamətdar gün münasibətilə hər kəsi təbrik edib. Qeyd edib ki, Ümummilli Liderimiz Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən milli istiqlalımız uğrunda aparılan mübarizəni yüksək qiymətləndirib, müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi uğrunda misilsiz xidmətlər göstərib. 2020-ci ildə İkinci Qarabağ müharibəsi və 2023-cü ildə antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyi tam bərpa olunub, regionda yeni reallıqlar yaranıb. Azərbaycan Xalq Cümhuriyyətinin mirası olan üçrəngli bayrağımızın Şuşada və işğaldan azad olunmuş digər ərazilərdə dalğalanmasının qürurunu yaşayırıq. Qarabağda geniş quruculuq işləri gedir.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”na uyğun olaraq görülən işlər barədə məlumat verən səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, icrası davam etdirilən 11 prioritet istiqamətdən biri də səhiyyənin müasir inkişafının təmin olunmasıdır. Hazırda Naxçıvan səhiyyəsinin maddi-texniki bazasının və kadr potensialının təkmilləşdirilməsi ilə bağlı mühüm layihələr icra olunur, innovativ yeniliklərə əsaslanan rəqəmsal səhiyyə sistemi qurulur. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Naxçıvanın səhiyyə sistemində özünəməxsus rol oynadığını bildirən Fuad Nəcəfli vurğulayıb ki, sözügedən Dövlət Proqramına uyğun olaraq fakültə üçün əlavə kampus inşa olunacaq.

Səlahiyyətli nümayəndə ötən qısa dövrdə muxtar respublikada aparılan səhiyyə islahatları barədə mə-




lumat verib, bu işlərin təşkilində dəstəyinə görə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinə, eləcə də əməyi olan hər kəsə təşəkkür edib, konfransın işinə uğurlar arzulayıb.

Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev konfrans iştirakçılarını müstəqil və suveren Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda salamlamaqdan məmnunluğunu ifadə edib. Nazir diqqətə çatdırıb ki, son illər muxtar respublikada institusional və qanunvericilik baxımından mühüm islahatlar həyata keçirilir. Bu islahatlar səhiyyə sistemində də özünü effektiv şəkildə göstərir, yeni tibb müəssisələri istifadəyə verilir, mövcud tibbi resurslar yenilənir, müasir texnologiyalar tətbiq edilir. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində göstərilən xidmətlərin keyfiyyətinin və əhatə dairəsinin artırılması, ixtisaslı kadrların yetişdirilməsi, özəl səhiyyə müəssisələrinin yaradılması kimi mühüm məsələlərin yer alması bu sahədə fəaliyyətin daha təkmil, müasir və etibarlı təşkilinə zəmin yaradacaq. Nazir qeyd edib ki, Azərbaycanda tibbi islahatlar 3 əsas istiqamət üzrə – səhiyyədə çalışan insan kapitalının formalaşması, səhiyyənin rəqəmsallaşması və yeni səhiyyə iqtisadiyyatı, yəni səhiyyənin maliyyələşməsində yeni mexanizmlər yönündə aparılır. Sevindirici haldır ki, son illər Naxçıvan Muxtar Respublikasında bu istiqamətlərdə əsaslı işlər görülüb. Xüsusilə tibbi təhsilin inkişafı istiqamətində mühüm addımlar atılır.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini icra edən Samiq Sadıxov Naxçıvanda fəaliyyət göstərən tibbi personal adından bu sahədə həyata keçirilən islahatları dəstəklədiklərinə görə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə və Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə təşəkkür edib.

Samiq Sadıxov qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına uyğun olaraq son illər muxtar respublikada kompleks səhiyyə islahatları aparılır. Bunun nəticəsidir ki, Azərbaycan Respublikasında rezidentlərin hazırlanması üçün klinik baza kimi müəyyən edilmiş tibb müəssisələrinin siyahısında Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən 11 tibb müəssisəsi də yer alır. Muxtar respublikada əhali pulsuz tibbi prosedurlarla və müvafiq dərman vasitələri ilə təmin edilib. Həkim və tibb bacılarının peşəkarlığının artırılması üçün Türkiyənin Hacettepe və Qazi universitetlərinin xəstəxanaları ilə əməkdaşlıq haqqında müqavilələr imzalanıb. Razılaşmaya əsasən 80-ə yaxın tibb işçisi sözügedən universitetlərdə təlim və təcrübələrdə iştirak edib.

Konfransda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, “Ümid əllərdə” videoçarxına baxış olub.

“Naxçıvan Muxtar Respublikası Həkimlər Assosiasiyası” İctimai Birliyinin sədri İsa Abdullayev klinik tibbi bazaların Naxçıvan Muxtar Respublikası üzrə fəaliyyəti barədə məlumat verib, ona Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin diplomu təqdim olunub.

Sonra “Səhiyyə sisteminin elektron idarəedilməsi” və “103 Çağrı Mərkəzi”nin proqram təminatları, Təcili Tibbi Yardım xidmətində videotelematik sistemin tətbiqi və e-səhiyyə sisteminin təqdimatları olub.

# Ali Məclis 2023-cü il büdcəsinin icrasını birinci oxunuşda qəbul edib





Mayın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasının növbəti plenar iclası keçirilib.

İclasın gündəliyinə 2 məsələ – “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (birinci oxunuş) və “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (birinci oxunuş) daxil edilib.

Ali Məclisin sədr müavini Anar İbrahimov gündəlikdə duran birinci məsələ – “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Qanun layihəsinin birinci oxunuşda müzakirəsi ilə bağlı qeyd edib ki, “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununun Azərbaycan Respublikasının Seçki Məcəlləsinə, “Media haqqında”, “Sərhəd mühafizə orqanları haqqında”, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının qanunlarının müvafiq müddəalarına uyğunlaşdırılmasının aparılması, seçki komissiyalarının fəaliyyətinin şəffaflığının, operativliyinin, peşəkarlığının artırılması məqsədilə müvafiq qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi hazırlanıb, deputatlara paylanılıb. Layihə Hüquq siyasəti komitəsinin 20 may 2024-cü il tarixli iclasında komitənin sədr və üzvlərinin, həmçinin Ali Məclis Aparatının və Mərkəzi Seçki Komissiyasının nümayəndələrinin iştirakı ilə müzakirə olunub.

Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli qanun layihəsi ilə bağlı məlumat verib və təmsil etdiyi komitənin rəyini bildirib.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Əjdər Əliyev bildirib ki, “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa sonuncu əlavə və dəyişiklik 2015-ci il tarixdə edilib. Azərbaycan Respublikasında seçki prosesini tənzimləyən və əlaqəli normativ hüquqi aktlarda edilmiş əlavə və dəyişikliklər müvafiq qanuna əlavə və dəyişikliklər edilməsini zəruri edir. Bu məqsədlə “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa bir sıra əlavə və dəyişikliklərin həyata keçirilməsi təklif edilib.

Məsələ ilə əlaqədar müzakirələr zamanı deputat Yeganə Məmmədova sual və fikirlərini səsləndirib.

Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov qanun layihəsi barədə müvafiq qurumların rəy və təkliflərini diqqətə çatdırıb.

Sonra “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanunu səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Gündəlikdə duran ikinci məsələnin – “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin birinci oxunuşda müzakirəsi zamanı Ali Məclisin sədr müavini qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasına əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti muxtar respublikanın büdcəsini icra edir. “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun müvafiq maddələrinə uyğun olaraq 2024-cü il tarixdə “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən Ali Məclisə təqdim olunub. Qanun layihəsi deputatlara paylanılıb, bundan başqa, 16 may 2024-cü il tarixdə Ali Məclisin rəsmi internet saytında yerləşdirilərək ictimai müzakirəyə çıxarılıb. Layihə İqtisadi siyasət komitəsinin 18 may 2024-cü il tarixli iclasında komitənin sədr və üzvlərinin, həmçinin Ali Məclis və Nazirlər Kabineti Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə olunub.

Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev qanun layihəsi barədə məlumat verib və təmsil etdiyi komitənin rəyini diqqətə çatdırıb.

Azərbaycan Respublikası Hesablama Palatasının auditoru, Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi Hafiz İsmayılbəyli Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrasının təhlilinə dair analitik fəaliyyət üzrə auditor hesabatı diqqətə çatdırıb.

Qanun layihəsi barədə Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən İsmayılov məlumat verib.

Gündəlikdə duran məsələnin müzakirəsi zamanı deputatlardan Hüseyn Bağırsoylu, Ehtimad Məmmədov, Elman Cəfərli və Əmir Babayev sual, fikir və təkliflərini səsləndiriblər.

Anar İbrahimov qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası ilə bağlı müzakirələrin keçirilməsi həm forma, həm də mahiyyət etibarilə Ali Məclisin təcrübəsində bir ilkdir. İclasda Hesablama Palatasının auditor hesabatının təqdim olunması büdcə inzibatçılığı, bütövlükdə, şəffaflıq və hesabatlılıq üçün mühüm addımdır.

Sonda deputatlar tərəfindən səsləndirilən suallara Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən İsmayılov və Azərbaycan Respublikası Hesablama Palatasının auditoru, Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi Hafiz İsmayılbəyli aydınlıq gətirib, fikirlərə münasibət bildiriblər.

İclasda “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Bununla da Ali Məclisin iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Möhtəşəm 100 gün

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan xalqı növbədənkənar seçkilərdə bu reallıqlara istinad etdi, əldə edilən bu kimi nailiyyətlərin davamına səs verdi. Bu seçimi ilə xalqımız bir daha göstərdi ki, böyük Heydər Əliyev yoluna və İlham Əliyev siyasi kursuna heç bir alternativi qəbul etmir.

Möhtərəm İlham Əliyevin dövlətimiz və xalqımız qarşısında ən böyük tarixi xidməti isə, əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilməsi, Azərbaycan torpaqlarında XIX əsrin əvvəllərindən kök atmağa başlamış mənfur erməni separatizminə son qoyulmasıdır. Vətən müharibəsindəki böyük Zəfərimizin, bütün ərazilərimiz üzərində milli suverenliyimizin müəllifi olan Prezident cənab İlham Əliyev bununla Ulu Öndər Heydər Əliyevin arzularını çin etdi, ata vəsiyyətini layiqincə yerinə yetirdi.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdə qətiyyəti, Vətən övladlarımızın qanı və canı ilə qazandığımız bu zəfərlər Azərbaycanın yalnız müasir müstəqillik dövrünün deyil, bütün dövlətçilik tarixinin olduqca möhtəşəm hadisələridir. Bunlar xalqımızın iki əsr idi ki, həyata keçməsinə çalışdığı arzularının ifadəsidir. Buna görə növbədənkənar prezident seçkisinin nəticəsi torpaqlarımızın işğaldan azad edilməsini və ərazi bütövlüyümüzün bərpasını təmin edən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə Azərbaycan xalqının sonsuz minnətdarlığının ifadəsi kimi də yaddaşlara köçdü.

### *20 ilin uğur hesabatı və yeni dövrün yol xəritəsi*

100 gün əvvəl – fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimindən sonra isə dövlətimiz və xalqımız Prezident cənab İlham Əliyevin qətiyyətli və müdrik rəhbərliyi ilə tarixdən süzülüb gələn dövlətçilik ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, müstəqilliyimizin buna qədərki böyük Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə əldə edilmiş möhtəşəm nailiyyətlərə, Vətən müharibəsindəki Zəfərə və ərazilərimiz üzərində milli suverenliyimizin tam təmin olunduğu tarixi gerçəkliyə söykənərək yeni inkişaf və yüksəliş mərhələsinə daxil oldu.

Prezident cənab İlham Əliyevin Milli Məclisdə etdiyi çıxışı televiziya ekranlarından böyük qürur və fəxarət hissi ilə izlədik. Cənab Prezidentin proqram xarakterli olan çıxışının məzmunu əhatəli idi və təsadüfi deyil ki, geniş siyasi-ictimai marağa səbəb oldu, xalqımızın tarixi baxışları, ölkəmizin bugünkü nailiyyətləri və gələcək milli hədəfləri ilə vəhdət təşkil etdi.

Ən əsası, bu çıxış Müzəffər Ali Baş Komandanın ötən 20 illik fəaliyyətinin qədirbilən xalqımızın zəfər tarixində həmişə yaşayacaq uğur hesabatı idi. Hansı ki bu hesabat 20 illik yüksəliş və inkişaf mərhələsinin möhtəşəm nailiyyətlərini və tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın şərəf salnaməsini gözlərimiz önündə bir daha canlandırdı. Cənab İlham Əliyevin ***"Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik!"*** sözləri ötən 20 illik dövrün bütün uğurlarının, xalqımızın uzun illərdən bəri arzu və istəklərinin ümumiləşdirilmiş möhtəşəm ifadəsinə çevrildi.

Bu çıxış qeyd etdiyim kimi proqram xarakterli olmaqla Azərbaycanın daxil olduğu yeni inkişaf və yüksəliş mərhələsinin düşünülmüş və əsaslandırılmış yol xəritəsi idi. Dövlətimizin başçısının hər bir fikri, hər bir cümləsi respublikamızın etibarlı gələcəyinə, xalqımızın firavanlığına və rifahına aydın və konkret notlar üzərində baxış idi.

Dövlətimizin başçısının çıxışını dinlədikcə həm də görürdük ki, möhtərəm İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi dövlətimizi və xalqımızı gələcəyə də qalibiyyət ruhunda aparır. Yəni qədəm qoyduğumuz yeni dövrdə əldə edəcəyimiz hər bir uğurun təməlində, kökündə Vətən müharibəsindəki zəfərimiz, erməni separatizminə son qoymağımız dayanacaq. Prezident cənab İlham Əliyevin qarşıya qoyduğu digər məsələlər də milli ruhla və dövlətçilik dəyərləri ilə əlaqələndirildi. Bununla da tarixi dövlətçilik ənənələrimiz, milli dəyərlərimiz, döyüş və Zəfər ruhumuz, qurub-yaratmaq potensialımızdan ibarət yeni bir mərhələyə qədəm qoyuldu.

Böyük qürur hissi ilə qeyd etməliyik ki, Azərbaycan bu yeni dövrə bir zamanlar həlli hər birimizə müşkül görünən tarixi problemlərimizi milli maraqlarımız çərçivəsində tam həll etmiş, ötən 20 ilin zəngin inkişaf və yüksəliş təcrübəsi ilə güclənmiş, milli haqqını, qürurunu, ləyaqətini təmin etmiş şəkildə – başıuca daxil olur.

### *Sülhməramlılar Azərbaycan ərazilərini vaxtından tez tərk etdilər*

Prezident cənab İlham Əliyevin yeni müddət üçün fəaliyyətinin ilk 100 gününün ən mühüm hadisələrindən biri Rusiya sülhməramlı kontingentinin Azərbaycan ərazilərini tərk etməsidir. Məlum olduğu kimi, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən bir vaxtlar separatçıların mövcud olduğu ərazilərimizdə Rusiya Federasiyasının sülhməramlı kontingenti yerləşdirilmişdi. Bəyanata əsasən sülhməramlı kontingentinin qalma müddəti 5 il idi. Ötən il Azərbaycanın həyata keçirdiyi antiterror tədbirlərinin nəticəsində Qarabağdakı erməni separatçılarının mövcudluğuna son qoyulub, bütün ərazilərimiz üzərində milli suverenliyimiz təmin edilib. Buna görə rus sülhməramlılarının Azərbaycan ərazilərində qalmalarına da zərurət qalmamışdı və onlar vaxtından da tez ölkəmizi tərk etdilər. Bu həm də qalib ölkənin vətəndaşlarının haqlı gözləntisi idi.

Rusiya sülhməramlılarının Azərbaycan ərazilərini tərk etməsi yeni tariximizin mühüm hadisələrindən biridir. Bu, Azərbaycanın milli mənafelərinin qorunması müstəvisində strateji uğurumuz olmaqla həm də onu göstərir ki, Qarabağ problemi tam həll olunub. Bu mənada, sülhməramlıların Azərbaycanı vaxtından tez tərk etməsi Prezident cənab İlham Əliyevin qətiyyətli və strateji baxımdan dərindən düşünülmüş olduqca uzaqgörən siyasət yürütdüyünü bir daha nümayiş etdirdi.

Bu proses həm də Ulu Öndər Heydər Əliyevin müdrikliyi nəticəsində keçmiş sovet qoşunlarının 1992-ci ildə Naxçıvanı tərk etməsini yadımıza saldı. Və bir daha əmin olduq ki, Ümummilli Liderimiz Heydər Əliyevin müəyyən etdiyi yol, Prezident cənab İlham Əliyevin həyata keçirdiyi alternativsiz siyasət milli maraqlarımızın ən etibarlı təminatçısıdır.

Rusiya sülhməramlı kontingentinin Azərbaycanı tərk etməsi daxildə və xaricdə olan qaragüruhların, sapı özümüzdən olan baltaların səsləndirdikləri cəfəng "proqnozlar"ın və iddiaların nə qədər çürük, əsassız olduğunu göstərdi, bunu səsləndirənlərin siyasi savad və dünyagörüşünün kasadlığını, qərəzliliyini bir daha sübut etdi. Çünki onlar belə bir iddia irəli sürürdülər ki, Rusiya qoşunları daxil olduğu ərazilərdən çıxmır və sülhməramlı kontingent Azərbaycan torpaqlarını da heç vaxt tərk etməyəcək. Lakin Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev qaragüruhçuların, Qərbdə mənzillənmiş "beşinci kolon"un bütün əsassız iddialarını və arqumentlərini altüst etdi. Bu hadisə Qərb siyasi dairələrinin də regionla bağlı məkrli niyyətlərini gözlərində qoydu. Çünki sülhməramlıların Azərbaycanı tərk etməsindən sonra onların Rusiyanı "etibarsız müttəfiq" adlandırmaları ondan xəbər verdi ki, Qərb əsl niyyətində ərazilərimizdə rus qoşunlarının mövcudluğuna Azərbaycanla Rusiya arasında hər zaman böhran yarada biləcək məsələ kimi baxırmış.

### *4 qeyri-anklav kənd Azərbaycana qaytarıldı*

Rusiya sülhməramlı kontingentinin ölkəmizi tərk etməyə başlamasının ardınca Azərbaycan ictimaiyyəti daha bir xoş müjdə aldı. Belə ki, Azərbaycanla Ermənistan arasında aprelin 19-da keçirilən dövlət sərhədinin delimitasiyası üzrə görüşdə delimitasiya prosesinin ilkin mərhələsində sərhəd xəttinin ayrı-ayrı hissələrinin keçmiş sovetlər ittifaqı çərçivəsində onun süqutu dövrünə mövcud olduğu hüquqi



**Prezident İlham ƏLİYEV:**

> *İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik.*

cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı yaşayış məntəqələri arasında bilavasitə keçməsini razılaşdırdılar. Bu o demək idi ki, hazırda Ermənistanın işğalı altında olan bu 4 qeyri-anklav kənd Azərbaycana qaytarılır. Və hamı bilir ki, bu proseslər məhz qəhrəman xalqımızın dünyaya bəxş etdiyi böyük sərkərdə, dünya lideri Prezident cənab İlham Əliyevin ölkəmizə ləyaqətlə rəhbərlik etməsi, xidmət göstərməsi sayəsində baş verir.

Prezident cənab İlham Əliyev hələ bu il may ayının 10-da yerli televiziya kanallarına müsahibəsində bu barədə suala cavabında demişdi: ***"Bildiyiniz kimi, orada anklav və qeyri-anklav kəndlər var. O kəndlər ki anklav kəndlər deyil, həmin dörd kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır".*** Aprel ayında həmin qeyri-anklav 4 kəndin işğaldan azad edilərək Azərbaycana qaytarılması barədə razılığın əldə olunması Prezident cənab İlham Əliyevin həmin müsahibədə ifadə etdiyi qətiyyətli mövqenin öz təsdiqini tapmasıdır.

Qazax rayonunun 4 kəndinin işğaldan azad edilməsi Vətən müharibəsindəki Zəfərin, ərazilərimizdə erməni separatizminə son qoyulmasının məntiqi davamı kimi Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində qazanılan mühüm tarixi uğurdur. Və bu uğurun müəllifi də məhz Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevdir. Bu qürurverici hadisə bir daha göstərdi ki, dövlətimizin başçısı Azərbaycanın, xalqımızın milli maraqları mövzusunda istənilən məsələdə qətiyyətli, dönməz və prinsipialdır.

### *Qayıdışın ünvanları sırasına Şuşa şəhəri və Sus kəndi əlavə olundu*

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycan dövlətinin əsas milli hədəflərindən biri Qarabağ və Şərqi Zəngəzurun bərpası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşüdür. İşğaldan azad edilmiş ərazilərin bərpası isə hələ Vətən müharibəsinin davam etdiyi günlərdən sonra başlayıb, ötən 3 il yarım ərzində sürətlə davam etdirilib. Bu qısa dövrdə azad edilmiş ərazilərin yenidən qurulmasının miqyası, həqiqətən, heyrətamiz və qürurvericidir.

Fevralın 14-də Milli Məclisdə andiçmə mərasimində Prezident cənab İlham Əliyev bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlərin qayıdacağını bəyan etdi: ***"Bizim planımız azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirməkdir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Bir çox şəhər və kəndlərdə artıq inşaat işləri başlamışdır. Biz Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq".***

Ötən 100 gün göstərdi ki, Qarabağ və Şərqi Zəngəzur Prezident cənab İlham Əliyevin böyük zəhməti, əzmi ilə sürətlə yenidən qurulur. Əgər 100 gün əvvələ qədər keçmiş məcburi köçkünlər Füzuli və Laçın şəhərlərinə, Zəngilanın Ağalı, Laçının Zabux, Tərtərin Talış kəndlərinə qayıtmışdılarsa, artıq qayıdışın ünvanları sırasına qeyrət qalamız olan Şuşa şəhəri və doğma Laçınımızın Sus kəndi də əlavə olunub. Əgər 100 gün əvvələ qədər Qarabağ və Şərqi Zəngəzura 5,4 min nəfərə yaxın keçmiş məcburi köçkün qayıtmışdısa, bu gün doğma yurduna qayıdanların sayı 7 min nəfəri ötüb.

May ayının 18-də Prezident cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Cəbrayıl rayonunun Böyük Mərcanlı, Karxulu, Sarıcallı, Maşanlı kəndlərinin, Zəngilanın Mincivan qəsəbəsinin təməllərinin qoyulması, "Ağalı" hotelinin, "Zəngilan" və "Şayıflı" Su Elektrik stansiyalarının, Zəngilan məscidinin istifadəyə verilməsi bir daha azad edilmiş ərazilərin bərpasının yüksək sürətlə davam etdirildiyini göstərdi.

### *18 ölkənin dövlət və hökumət başçısı ilə görüş*

100 günün təhlili Prezident cənab İlham Əliyevin yürütdüyü mükəmməl xarici siyasət kursunun miqyasını da göstərir. Bu müddətdə Prezident cənab İlham Əliyev 3 dövlətə səfər edib, 6 ölkənin prezidenti, 5 ölkənin hökumət başçısı Azərbaycana gəlib. Ümumilikdə, bu dövrdə Prezident cənab İlham Əliyev beynəlxalq tədbirlərdə keçirilən görüşlər də daxil olmaqla, 18 ölkənin dövlət və hökumət başçısı, o cümlədən ABŞ Dövlət katibi, NATO-nun Baş katibi, ATƏT-in Baş katibi ilə görüşüb. Bu səfərlər və görüşlər, ilk növbədə, Azərbaycanın xarici siyasətinin məzmunundan, bu siyasətin çoxvektorlu və müstəqil olmasından xəbər verir. Ən əsası Qərb siyasi dairələrinin respublikamıza qarşı qərəzli və məkrli siyasi fəaliyyətləri fonunda Prezident cənab İlham Əliyev öz uğurlu xarici siyasət kursu ilə 100 gündə Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin edib.

Eyni zamanda bu görüşlərin hər biri Prezident cənab İlham Əliyevə olan qlobal ehtiramdan xəbər verir. Fevral ayında andiçmə mərasimindən sonra 60-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyanın Münxen şəhərinə səfər edən Prezident cənab İlham Əliyevin burada keçirdiyi hər bir görüş göstərdi ki, ölkə başçısı beynəlxalq miqyasda dərin ehtiramla qarşılanan siyasi liderdir. Münxen Təhlükəsizlik Konfransındakı görüşlərdən gəlinən başqa bir qənaət bu oldu ki, Azərbaycan Prezidentinin hadisələrə baxışı, münasibəti hər bir beynəlxalq tədbirin diqqətlə izlənilən məqamlarındandır.

Eləcə də Azərbaycana səfər edən dövlət və hökumət başçılarının Prezident cənab İlham Əliyevlə bağlı fikirlərini xüsusi qeyd etməliyik. Məsələn, Bolqarıstan Prezidenti Rumen Radevin Bakıda mətbuata ünvanladığı bəyanatda "Mən Prezident Əliyevlə yeddi ildən artıqdır ki, tanışam və bu dövr ərzində bizim çoxsaylı müzakirələrimiz olub. Mən onun cəsarətli baxışına şahidəm, ona çox gözəl bələdəm" deməsi, Slovakiyanın Baş naziri Robert Fitsonun "Sizə açıq şəkildə deyə bilərəm ki, təkbətək görüşümüzdə müzakirələrimiz ölkəniz və Sizin haqqınızda düşündüyümün təsdiqi oldu. Siz suveren xarici siyasətin tərəfdarısınız. Siz beynəlxalq hüququ müdafiə edən şəxsiyyətsiniz. Siz praqmatik şəxsiyyətsiniz" sözləri, Belarus Respublikasının Prezidenti cənab Aleksandr Lukaşenkonun "Tanrıya şükürlər olsun ki, bu mürəkkəb regionda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın timsalında olduqca güclü, normal lider ölkə mövcuddur" sözləri isə Prezident cənab İlham Əliyevin şəxsiyyətinə, fəaliyyətinə, etibarlı tərəfdaş olmasına verilən ali qiymətlərin və qlobal miqyasdakı nüfuzunun növbəti təsdiqi oldu.

Bu dövrdə tarixdə ilk dəfə olaraq qonşu İran İslam Respublikasının Prezidenti Azərbaycan-İran sərhədinə gəlmiş, Azərbaycan və İran prezidentlərinin iştirakı ilə "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız Qalası" hidroqovşağının açılış mərasimi keçirilmiş, iki ölkə arasında bir çox razılaşmalar əldə olunmuşdur. Həmçinin Azərbaycana gələn Qazaxıstan, Qırğızıstan və Belarus kimi dövlətlərin prezidentləri həm də işğaldan azad edilmiş ərazilərimizə səfər ediblər ki, bu da beynəlxalq ictimaiyyətin Azərbaycanın Qarabağ zəfərini tam bölüşməsinin nümayişi olmaqla yanaşı, Azərbaycanın haqq işinin qlobal müstəvidə daha böyük dəstək tapmasına edilən layiqli dost töhfələridir.

### *Dövləti sevməyin və Vətənə xidmətin nümunəsi*

Prezident cənab İlham Əliyevin fəaliyyətinin ötən 100 günü Azərbaycanın tək müasir müstəqillik deyil, bütün dövlətçilik tarixini şərəfləndirən olduqca möhtəşəm hadisələr və uğurlarla əlamətdardır. Hansı ki bu hadisələrin hər biri dövlətimizin və xalqımızın milli maraq və mənafelərini qoruyub və qarşıya qoyulan vəzifələrin yerinə yetirildiyini təsdiq edib. 100 günü ərazi bütövlüyümüzün bərpasından sonra respublikamızın qədəm qoyduğu yeni dövrün ilk uğurlu mərhələsi də adlandıra bilərik.

Əlbəttə ki, bu mərhələdə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Prezident cənab İlham Əliyevin ən böyük siyasi silahdaşı Mehriban xanım Əliyevanın fəaliyyətini, respublikamızda əldə olunan nailiyyətlərə verdiyi dəyərli töhfələri xüsusi qeyd etməliyik. Hörmətli Mehriban xanım Əliyevanın istər Birinci vitse-prezident, istərsə də Heydər Əliyev Fondunun prezidenti kimi genişmiqyaslı ictimai-siyasi fəaliyyətinin hər bir məqamı müstəqil Azərbaycan dövlətini sevməyin və Vətənə, xalqa xidmətin ən mükəmməl nümunələridir.

Yaranmasının 20-ci ili tamam olan Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətini Azərbaycan cəmiyyəti haqlı olaraq xanım Mehriban Əliyevanın vətənpərvərliyinin, öz xalqının milli-mədəni və mənəvi dəyərlərinə olan dərin bağlılığının təcəssümü kimi qəbul edir. Ulu Öndər Heydər Əliyevin ideyalarını, xeyirxah və müqəddəs əməllərini yaşatmaq üçün ötən 20 ildə fondun sosial, mədəniyyət və humanitar sahələrdə həyata keçirdiyi saysız-hesabsız layihələr Prezident cənab İlham Əliyevin müəyyən etdiyi vəzifələrin yerinə yetirilməsində əvəzsiz rol oynayaraq cəmiyyətimizdə yüksək əhvali-ruhiyyəni, vətəndaş məmnuniyyətini təmin edir. Mehriban xanım Əliyeva hər zaman köməyə, qayğıya ehtiyacı olanın dayağı olub, kimsəsizlərin, müxtəlif xəstəliklərdən əziyyət çəkənlərin ümid yeri olub. Zaman-zaman səhhətində problem yaranmış elm, mədəniyyət, incəsənət xadimlərinin ölkəmizdə və xaricdə müalicəsinin həyata keçirilməsi, müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların yenidən sağlam həyata qayıdışı üçün Bakıda Psixonevroloji Uşaq Mərkəzinin, Talassemiya Mərkəzinin, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya mərkəzinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin, Autizm Spektr Pozuntulu Uşaqlar üçün Bərpa Mərkəzinin və onlarla müxtəlif xəstəxanaların inşası, 500-dən artıq orta məktəbin, uşaq evlərinin bərpası, yenidən qurulması Mehriban xanım Əliyevanın elmimizin, mədəniyyətimizin, milli genefondumuzun qorunmasına və inkişafına yönəlik fəaliyyətinin və vətənpərvərliyinin ayrıca nümunəsi və nümayişidir.

Azərbaycan muğam sənətinin, xalq musiqisinin qorunması, inkişafı, təbliği, mədəni-tarixi abidələrimizin bərpası, milli dəyərlərimizin UNESCO-nun irs siyahısına salınması yönündə fəaliyyəti isə Mehriban xanım Əliyevanın milli dəyərlərimizə dərin sevgisini göstərir. Mehriban Əliyeva yalnız milli mədəniyyətimizin fəal təbliğatçısı deyil, həm də onun əzmkar qoruyucusudur. Bütün bunlarla Mehriban xanım Əliyeva maddi və mənəvi mədəni irsimizin əsl sahiblərinin məhz xalqımız olduğunu dünyaya bəyan edir.

Son onilliklərdə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində Heydər Əliyev Fondunun həyata keçirdiyi məzmunlu, tutumlu tədbirlər isə erməni yalanlarının ifşa edilməsində, Xocalı soyqırımının dünyada tanıdılmasında böyük rol oynamaqla, xarici siyasətimizin daha böyük uğur qazanmasına xidmət edib. Bu işdə birinci xanım Mehriban Əliyevanın təşəbbüsləri hər bir azərbaycanlı üçün Vətəni sevməyin əsl örnəyidir.

Son 3 il yarımda isə xalqımız Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin timsalında Mehriban xanım Əliyevanın böyük ürək sahibi olmasına, intəhasız vətən sevgisinə şahidlik edir. Heydər Əliyev Fondunun təşəbbüsləri ilə azad olunmuş ərazilərimizdə, xüsusən Şuşada tarixi və dini abidələrimizin bərpası ilə bağlı həyata keçirilən layihələr Mehriban xanım Əliyevanın həm də fəal, əsl vətəndaşlıq mövqeyinin ifadəsidir. Bu layihələr, nəticə etibarilə, azad olunmuş ərazilərimizin daha sürətli və keyfiyyətli bərpasına xidmət edir.

Ümumilikdə isə Mehriban xanım Əliyevanın Birinci vitse-prezident və Heydər Əliyev Fondunun prezidenti kimi məzmunlu və çoxşaxəli fəaliyyətinin hər bir istiqaməti Ulu Öndər Heydər Əliyevin ideyalarının həyata vəsiqə almasına, möhtərəm Prezident cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin daha böyük uğurlar qazanmasına xidmət edir. Cənab İlham Əliyevin yeni müddətə prezidentliyinin ötən 100 gününün reallıqları da məhz birinci xanım Mehriban Əliyevanın Azərbaycanın dövlət siyasətinə hərtərəfli layiqli töhfələr verdiyini tam miqyası ilə təsdiq edir.

### *Naxçıvanın inkişafında yeni mərhələ başlayıb*

Prezident cənab İlham Əliyevin yeni müddətə dövlət başçısı kimi fəaliyyətinin ilk 100 gününün əsas göstəricilərindən biri də respublikamızda sosial-iqtisadi inkişafın davamlı olması, makroiqtisadi göstəricilərin yüksəlməsidir. 2024-cü ilin ötən dövründə ölkədə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul istehsal olunması respublikamızın inkişafı ilə bağlı tam aydın təsəvvür yaradır.

Bu dövrdə Naxçıvan Muxtar Respublikasında da sosial-iqtisadi sferada yeni nailiyyətlər əldə olunub, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi təmin edilib.

2024-cü ilin ötən dövründə Naxçıvanda sosial-iqtisadi sahədə əldə olunan bəzi müsbət nəticələrə diqqət yetirsək, təkcə bu ilin ilk aylarında muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi 200 milyon 800 min 700 manat və ya ötən ilin əvvəli ilə müqayisədə 2,7 faiz çox olması islahatların uğurlu nəticələrindən biri kimi qiymətləndirilməlidir. Bu dövrdə əhalinin hər nəfərinə düşən ÜDM həcmi 2 faiz artaraq 428,3 manata çatıb. Bundan başqa, ilin əvvəlindən muxtar respublikada 91 milyon manatdan artıq sənaye məhsulu istehsal edilib ki, bu da ötən ilin müvafiq dövründəki göstəricini 27 faiz üstələyir. Bu dövrdə nəqliyyat sektorunda yük və sərnişin daşınması, pərakəndə ticarət dövriyyəsi, əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə artıb ki, bütün bunlar muxtar respublikanın həm də bütün digər sahələrində yeni inkişaf mərhələsinin uğurlu olduğunu göstərir.

Təbii ki, dəyişikliklər yalnız iqtisadi deyil, digər sahələrdə də özünü göstərir. Görünən həm də odur ki, Naxçıvanda bütün istiqamətlərdə başlanan yeni islahatlar praktik şəkildə özünü doğruldur və muxtar respublikanın davamlı inkişafını təmin edən düzgün yol seçilib. Ən əsası Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin rəhbərliyi ilə burada qısa zamanda əldə edilmiş nailiyyətlər, hər bir yüksəliş nümunəsi təsdiq edir ki, Prezident cənab İlham Əliyevin qarşıya qoyduğu tapşırıq və tövsiyələr Naxçıvanda vaxtında və layiqincə icra olunur.

### *COP29 Azərbaycanın dünyaya yeni təqdimatı olacaq*

Qarşıdakı dövrdə Azərbaycanı milli prioritetlərin yerinə yetirilməsi ilə bağlı mühüm vəzifələr və həm də yeni nailiyyətlər gözləyir. Sözsüz ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı, sosial-iqtisadi inkişafın davamlılığının təmin edilməsi cənab İlham Əliyevin növbəti prezidentlik müddətinin əsas hədəfləri olacaq.

Eyni zamanda onu da qeyd etməliyik ki, Azərbaycanın ötən dövrdə regionda aparıcı dövlətə, dünyada söz sahibinə çevrilməsi nəinki qlobal mövqelərimizi gücləndirib, həm də respublikamıza qarşı olan qlobal ehtiram və etimadı artırıb. Azərbaycanın 2019-2023-cü illərdə BMT-dən sonra ikinci ən böyük təşkilat olan Qoşulmama Hərəkatına sədrliyi də bu etimadın təzahürü idi.

Bu ilin noyabr ayında isə Azərbaycanda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçiriləcək. COP29 sıradan bir beynəlxalq tədbir deyil və ona ev sahibliyi etmək dövlətin qlobal nüfuzu və mövqeyi ilə əlaqəli olan bir məsələdir. Bu baxımdan dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-un Azərbaycanda keçirilməsi barədə qərarın qəbulu Prezident cənab İlham Əliyevin növbəti təntənəli uğurudur. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük nailiyyətidir. Eyni zamanda bu qərar Azərbaycana qarşı çirkin kampaniya aparan siyasi dairələrə və qaragüruhçu qüvvələrə də tutarlı cavabdır.

COP29 Azərbaycanın dünyaya yeni təqdimatı baxımından mühüm siyasi hadisə olacaq. Bu tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin uğurlarını, inkişafını, Vətən müharibəsindəki zəfərimizi bir daha dünyaya bəyan edəcək.

Yekunda qeyd etmək istərdim ki, beynəlxalq təcrübədə belə 100 günlük müddət yeni seçilmiş prezidentin həm də özünü təsdiq etməsi baxımından mühüm siyasi qiymətləndirmə hesab olunur. Lakin söhbət cənab İlham Əliyev kimi liderlərdən gedirsə, belə dövlət başçılarının özlərini təsdiq etməsinə qətiyyən ehtiyac yoxdur. Çünki cənab İlham Əliyevin ötən 20 ildəki fəaliyyətinin nəinki hər prezidentlik müddəti və ya hər ili, hər ayı, hər günü belə özünütəsdiqin ən mükəmməl nümunəsidir.

**Bəxtiyar ƏSGƏROV**
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri***

# Ali Məclisin plenar iclasında 2023-cü il büdcəsinin icrası ilə bağlı müzakirələr davam edir



Mayın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasının növbəti plenar iclası keçirilib.

İclasın gündəliyinə 2 məsələ – “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (ikinci oxunuş) və “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (ikinci oxunuş) daxil edilib.

Ali Məclisin sədr müavini Anar İbrahimov gündəlikdə duran birinci məsələ ilə bağlı qeyd edib ki, qanun layihəsi 22 may 2024-cü il tarixdə birinci oxunuşda müzakirə edilib, söylənilmiş təklif və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilib, Ali Məclisin qərarı ilə birinci oxunuşda qəbul olunub. Layihənin birinci oxunuşunda verilmiş təkliflərə Ali Məclisin Hüquq siyasəti komitəsi tərəfindən baxılıb, müzakirənin nəticəsi olaraq layihənin yenilənmiş variantda ikinci oxunuş üçün Ali Məclisin iclasına təqdim olunması qərara alınıb.

Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məlumat verib və təmsil etdiyi komitənin rəyini bildirib.



Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov qanun layihəsi ilə bağlı müvafiq qurumların rəy və təkliflərini diqqətə çatdırıb, qanuna dəyişikliklər barədə məlumat verib.

Sonra “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanunu səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Gündəlikdə duran ikinci məsələnin – “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin ikinci oxunuşda müzakirəsi zamanı Ali Məclisin sədr müavini qeyd edib ki, qanun layihəsi 22 may 2024-cü il tarixdə birinci oxunuşda müzakirə edilib, söylənilmiş təklif və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilib, Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul olunub. Layihənin birinci oxunuşunda verilmiş təkliflərə Ali Məclisin İqtisadi siyasət komitəsi tərəfindən baxılıb, müzakirənin nəticəsi olaraq layihənin ikinci oxunuş üçün Ali Məclisin iclasına təqdim olunması qərara alınıb.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev məlumat verib, təmsil etdiyi komitənin rəyini diqqətə çatdırıb.

Ardınca qanun səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Bununla da Ali Məclisin iclası başa çatıb.

# İqtisadi siyasət komitəsinin iclası



Mayın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclası keçirilib.

İclası giriş sözü ilə açan İqtisadi siyasət komitəsinin sədri İsa İsayev gündəlikdə duran məsələnin “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirəsi olduğunu diqqətə çatdırıb.

Gündəlik təsdiq olunduqdan sonra komitə sədri bildirib ki, hər il olduğu kimi, bu il də Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin hazırladığı 2023-cü il üçün Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlir və xərc maddələri üzrə 2023-cü il büdcəsinin faktiki icrası ilə bağlı illik hesabatı və müvafiq qanun layihəsi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən Ali Məclisə təqdim edilib. Layihəyə görə 2023-cü ildə Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlirləri, ümumilikdə, 152 milyon 222 min manat proqnoza qarşı 184 milyon 385 min 484 manat icra olunmaqla proqnoza 121,1 faiz əməl olunub. Yığılan vəsaitin 164 milyon 718 min 100 manatı vergi orqanlarının xətti ilə, 11 milyon 901 min 609 manatı gömrük daxilolmaları şəklində, 5 milyon 420 min 56 manatı xüsusi vəsaitlər (büdcədənkənar) üzrə daxilolmalar və 2 milyon 345 min 719 manatı digər mənbələrdən (cərimələr) daxilolmalar hesabına toplanıb. 2023-cü ildə Naxçıvan Muxtar Respublikasında büdcə xərclərinin səmərəliliyinin və büdcə daxilolmalarının artırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib. Ötən ildə Naxçıvan Muxtar Respublikası büdcəsinin nəzərdə tutulan xərcləri 605 milyon 13 min manat plana qarşı 504 milyon 316 min 34 manat icra olunmaqla 16,6 faiz və ya 100 milyon 696 min 965 manat az icra edilib. Ümumilikdə isə 2023-cü il büdcəsinin faktiki icrası ilə bağlı qanun layihəsi və illik hesabat onu deməyə əsas verir ki, Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsi səmərəli və müsbət dinamikalı olub.

Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini, nazir vəzifələrinin müvəqqəti icraçısı Həsən İsmayılov qanun layihəsi barədə məlumat verib.

Məsələ ətrafında aparılan müzakirələrdə komitənin sədri İsa İsayev, sədr müavini Esmira Həsənova, üzvləri Hüseyn Bağırsoylu, Sevda Quluyeva və Ehtibar İsmayılov Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrasının gəlirlər üzrə artmasının, eyni zamanda xərclər üzrə qənaətin səbəbləri ilə bağlı suallar səsləndiriblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri Nihad Möhbalıyev Nazirlər Kabineti tərəfindən müzakirə üçün Ali Məclisə təqdim olunan “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsini müsbət qiymətləndirib. Həmçinin muxtar respublikanın 2023-cü il büdcəsinin icrasının, ümumilikdə, səmərəli olduğunu qeyd edib.

Maliyyə nazirinin müavini, nazir vəzifələrinin müvəqqəti icraçısı Həsən İsmayılov və Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin əməkdaşı İsmayıl Bağırov səsləndirilən suallara aydınlıq gətiriblər. Büdcə xərclərində yaranmış qənaətin səbəbini əməyin ödənişi, malların (iş və xidmətlərin) satın alınması, subsidiyaların ödənilməsi, sosial ödənişlər və qeyri-maliyyə aktivləri üzrə olduğu diqqətə çatdırılıb.

Sonda gündəlikdə duran məsələ ilə əlaqədar İqtisadi siyasət komitəsinin rəyi oxunduqdan sonra “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Ali Məclisin müzakirəsinə tövsiyə olunub.

# Hüquq siyasəti komitəsinin iclası keçirilib



Mayın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclası keçirilib.

Komitə sədri İsmayıl Qəribli iclasın gündəliyinə bir məsələnin – “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirəsinin daxil edildiyini deyib.

İsmayıl Qəribli qeyd edib ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə, “Media haqqında”, “Sərhəd mühafizə orqanları haqqında”, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının qanunlarına müvafiq uyğunlaşdırma aparılması, seçki komissiyalarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə və Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasının 2024-cü il 15 may tarixli məktubu ilə təqdim olunmuş təkliflər nəzərə alınmaqla, “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Qanun layihəsi hazırlanıb. Qanun layihəsi Ali Məclisin Hüquq siyasəti komitəsinə göndərilib və komitə üzvlərinə paylanılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov qanun layihəsi barədə məlumat verib.

Gündəlikdə duran məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası Aparatının Təşkilat şöbəsinin müdiri Əli Qədimov çıxış edərək deyib ki, cari ildə Ali Məclisə seçkilərin keçirilməsi nəzərdə tutulur. Məhz bu əsasla seçkilərin keçirilməsinin demokratikliyinin və şəffaflığının təmin edilməsi, eyni zamanda seçki komissiyalarının fəaliyyətinin operativliyinin təmin olunması məqsədilə “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda bəzi əlavə, düzəliş və dəyişikliklərin edilməsi təklif edilib. Bu düzəlişlərin bir qismi texniki xarakterli olsa da, məzmun və mahiyyət düzəlişləri də var.

Məsələ ətrafında aparılan müzakirələrdə komitənin sədri İsmayıl Qəribli, sədr müavini Aidə Cəlilzadə, üzvləri Hacıfəxrəddin Səfərli və Qadir İbrahimov fikirlərini və suallarını səsləndiriblər.

Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov və Mərkəzi Seçki Komissiyası Aparatının Təşkilat şöbəsinin müdiri Əli Qədimov səsləndirilən fikirlərə münasibət bildirib, suallara aydınlıq gətirib.

Müzakirə olunan məsələ ilə əlaqədar Hüquq siyasəti komitəsinin rəyi oxunub, “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Ali Məclisin müzakirəsinə tövsiyə edilib.

Bununla da iclas öz işini başa çatdırıb.

# Ali Məclisin komitə iclasında qanun layihəsi ikinci oxunuşda müzakirə edilib

Mayın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclası keçirilib.

İclasa sədrlik edən Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli iclasın gündəliyinə birinci oxunuşda olan “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinə təklif olunan dəyişikliklərin müzakirəsinin daxil edildiyini deyib.

Komitə sədri qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 22 may 2024-cü il tarixli iclasında birinci oxunuşda olan müvafiq Qanun layihəsinə dəyişikliklər edilməsi ilə bağlı deputatlar tərəfindən, eləcə də müvafiq sorğu əsasında Naxçıvan Muxtar Respublikasının Ədliyyə və Maliyyə nazirlikləri, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən edilmiş təkliflər qeydə alınıb. Ali Məclisin Hüquq siyasəti komitəsi Ali Məclisin Daxili Nizamnaməsinə uyğun olaraq təkliflərin müzakirəsini həyata keçirməlidir.

Qanun layihəsinə təklif olunan dəyişikliklərlə bağlı Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov məlumat verib.

İclasda “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Qanununun yenidən işlənilmiş layihəsi



ikinci oxunuşda Ali Məclisin plenar iclasına tövsiyə olunub.

Bununla da iclas öz işini başa çatdırıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Xarici ölkələrin dövlət başçılarının Qarabağa səfərləri rəmzi məna daşıyır

Qarabağın işğaldan azad edilməsi, bəlkə də, çoxlarına xəyal kimi görünsə də, biz bir olub, birləşib 30 il mübarizə apardıq, gücləndik və 1990-1994-cü illərdə qeyri-bərabər döyüşlərdə itirdiyimiz 20 faiz torpağımızı 2020-ci ildə cəmi 44 gündə geri aldıq. Postmüharibə dövründə düşmənin xarabaya döndərdiyi, minalar döşədiyi ərazilərə ölkə başçısının göstərişi ilə xarici dövlətlərin nümayəndələri və media əməkdaşlarının səfərləri təşkil edildi. İşğaldan azad edilmiş ərazilərdəki reallıq beynəlxalq səviyyədə tanıdıldı. Cəmi 44 günə azad edilən torpaqları və ən əsası alınmaz qala Şuşanı hər bir xarici ölkə nümayəndəsi maraq və heyrətlə izlədi.

Lakin düşmən 30 il ərzində işğal altında saxladığı bu torpaqları beynəlxalq səviyyədə tanıtdırmaq üçün əlindən gələni etsə də, həmin ərazilərə nəinki bir dövlət başçısı, hətta digər yüksək dövlət rəsmisini belə gətirə bilmədi. Çünki onlar qəbul etmək istəməsələr də, həmin ərazilər Azərbaycana aiddir. Bunu digər dövlətlərin rəhbərləri də qəbul edirdilər.

Azərbaycan Prezidentinin dünya reallıqlarına hakimliyi və hadisələri idarə edə bilmək qabiliyyəti sayəsində Vətən müharibəsindən öncəki illərdə iştirak etdiyi mötəbər tədbirlərdə səsləndirdiyi tarixi faktlarla sübuta yetirdiyi həqiqətlər sayəsində dünya artıq anlamışdı ki, bu torpaqlar əzəldən bizim olub və özümüzə qayıtmalıdır. Vətən savaşında yanımızda yer almayan dövlətlər belə torpaqlarımız işğaldan azad ediləndə hərb meydanında Azərbaycan əsgərinin gücünə, diplomatik masada isə Ali Baş Komandanın siyasi manevrlərinə heyran qalmışdı. Və həmin ərazilər işğaldan azad edildikdən sonrakı, təxminən, üç ildən artıq bir müddət ərzində Azərbaycana, rəsmi səfər edən dövlət başçılarının və diplomatların Şuşaya, Füzuliyə, Ağdama baş çəkməsi artıq ənənə halını almağa başladı.



Qarabağa ilk səfər 44 günlük haqq savaşında Azərbaycana dəstək olan qardaş dövlətin rəhbəri Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən edildi. Bu günə kimi Türkiyə Respublikasının Prezidenti üç dəfə işğaldan azad edilmiş ərazilərə səfər edib. NATO-nun sammitindən birbaşa Şuşaya səfər edən Rəcəb Tayyib Ərdoğan orada Prezident cənab İlham Əliyevlə 2021-ci ilin iyun ayında Şuşa Bəyannaməsini imzaladı. Daha sonra Prezident Rəcəb Tayyib Ərdoğan Qarabağın hava qapısı olan Füzuli Hava Limanının, sonrakı günlərdə Zəngilan Hava Limanının açılış mərasimlərində iştirak etdi.

Özbəkistan Prezidenti Şafkat Mirziyoyev işğaldan azad edilmiş ərazilərə səfəri zamanı Özbəkistan dövləti tərəfindən inşa edilən orta məktəbin istifadəyə verilməsi tədbirində olub. Türk dövlətləri içərisində seçilən dövlətlərdən biri olan Özbəkistanın Füzuliyə hədiyyə etdiyi məktəbdə təhsil alan övladlarımız da qəlbində türkçülük sevgisi ilə böyüyür.

Azərbaycana Qarabağda quruculuq işlərində ilk dəstək göstərən ölkələrdən olan Özbəkistan yaxın günlərdə Füzuli şəhərində tekstil sahəsində birgə işlər görməyi də planlaşdırır.

Şafkat Mirziyoyevdən sonra Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev də işğaldan azad edilmiş Füzuliyə, Şuşaya və digər ərazilərə səfər etdi. Eyni zamanda Tokayev də Uşaq Mədəniyyət Mərkəzinin açılışında iştirak etdi. Həmin mərkəzi də Qazaxıstan dövləti öz hesabına inşa etdirib.



Sonrakı dövrdə Qırğızıstan Prezidenti Sadır Japarov da işğaldan azad edilmiş ərazilərə səfər edib. Dövlət başçısı ilə birlikdə Ağdamın Xıdırlı kəndində Qırğızıstan dövlətinin hesabına inşa olunacaq orta məktəbin təməlini atıb.

İşğaldan azad edilmiş ərazilərə Qırğızıstan Prezidentinin səfəri artıq 4-cü xarici, türk ölkə başçısının həmin ərazilərə səfər etməsi deməkdir. Bu səfərlərlə yanaşı, ötən həftə Belarus dövlət başçısının da ölkəmizə dövlət səfəri zamanı Füzuli və Şuşaya da getməsi təkcə türkdilli ölkələrin deyil, Azərbaycanın haqlı mübarizəsini dəstəkləyən digər dövlətlərin də həmrəyliyini ifadə edir. Bu prosesin artıq ənənə halını alması isə Azərbaycanın həm işğaldan azad etdiyi ərazilərdə apardığı quruculuq işlərinin tanıdılması, həm də düşmənin iç üzünü göstərmək baxımından əhəmiyyətlidir. Bununla yanaşı, bu səfərlər Cənubi Qafqazda tarixi ədalətin bərpa edilməsinin beynəlxalq səviyyədə tanıdılması və qəbul edilməsi baxımından çox önəmli hadisədir. Müharibə bitdikdən sonra Cənubi Qafqazda formalaşmış yeniliklər və bu yeniliklərin qəbul edilməsi baxımından da belə səfərlərin təşkil edilməsi çox önəmlidir.

Bu səfərlərin davam etməsi düşünülmüş siyasətin hədəflərinə çatmağımız üçün çox vacib və lazımlıdır. Onu da qeyd etmək yerinə düşər ki, səfərlər təkcə dövlət başçıları səviyyəsində həyata keçirilmir. Xarici ölkələrin Azərbaycandakı diplomatik korpusları media nümayəndələri üçün də azad olunmuş ərazilərə səfərlər təşkil edilir.

Ölkə başçısının təşəbbüsü ilə qarşıdakı aylarda Şuşada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının qeyri-rəsmi görüşünün keçirilməsi nəzərdə tutulur. Bu ilin noyabr ayında dünyada ən önəmli hadisələrdən biri olan COP-29 Azərbaycanda keçiriləcək. Həmin tədbir çərçivəsində Azərbaycana səfər edəcək dövlət və hökumət başçıları, digər nüfuzlu şəxslər, rəsmi səlahiyyətli şəxslər bu prosesin şahidi olacaqlar.

Bütün bu səfərlərin edilməsi, eyni zamanda Qarabağda türk dövlətləri tərəfindən inşa etdirilən tikililərin istifadəyə verilməsi Azərbaycan dövlətinin işğaldan azad edilmiş ərazilərinin beynəlxalq səviyyədə tanıdılması, Azərbaycanın formalaşdırdığı yeni reallıqların qəbul edilməsi baxımından çox önəmli rəmzi məna daşıyan proseslərdir və Türk dünyası birliyinin ən gözəl nümunəsi, dünya dövlətlərinin dəstəyinin göstəricisidir.

Ramiyə ƏKBƏROVA



# Bir sözlə qaytarılan 4 kənd,

## yaxud Ali Baş Komandanın 100-cü gün töhfəsi

Sirr deyil ki, XX əsrdə Azərbaycan torpaqları hissə-hissə Ermənistana verildi. Belə torpaq hədiyyələri illər keçdikcə davam etdi. Ümummilli Lider Heydər Əliyev 1969-cu ilin iyul ayında rəhbər seçiləndən sonra artıq bu torpaq hədiyyələri, bu proses dayandı. Bununla belə müstəqilliyin ilk illərində ölkədə baş verən anarxiya və özbaşınalıq, hakimiyyətsizlik və yarıtmaz rəhbərlərin fəaliyyəti torpaqlarımızın ermənilər tərəfindən işğalı ilə nəticələndi.

Azərbaycan dövlətinin bu işğala son qoyması isə Prezident cənab İlham Əliyevin gərgin əməyinin payına düşdü. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan hazırlaşdı. Ölkəmiz gücləndi, iqtisadiyyatımız gücləndi, güclü ordu potensialı yaradıldı. 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində tarixi, əzəli torpaqlarımız işğalçılardan azad edildi. Dövlətimiz və onun Ali Baş Komandanı gücünü, siyasi iradəsini göstərdi. Heç kimlə hesablaşmadan, heç nəyə baxmadan, heç kimdən qorxmadan lazım olan əməliyyatı böyük peşəkarlıqla, məharətlə və fədakarlıqla keçirdi. Beləliklə, Azərbaycan öz dövlət suverenliyini tam bərpa etdi. Cənab Prezidentin də dediyi kimi: ***"Biz öz haqqımızı danışıqlar yolu ilə yox, kiminsə güzəşti hesabına yox, döyüş meydanında bərpa etdik, şəhərlərimizi, kəndlərimizi azad etdik, qan tökdük, şəhidlər verdik".***

Biz heç vaxt müharibə istəməmişik, bu gün də istəmirik. Bizə müharibə lazım deyil, bizə torpaqlarımız lazım idi. Azərbaycan Liderinin iradəsindən kənar bu bölgədə heç bir məsələ həll oluna bilməz. Burada söz sahibi Azərbaycan və onun Lideridir, Qafqazda aparıcı dövlət Azərbaycandır və Azərbaycanla hər kəs hesablaşmalıdır.

Bu gün Qazaxın 1990-cı və 1992-ci illərdə işğal edilmiş torpaqları bir güllə atılmadan bizə qaytarılır. Delimitasiya, demarkasiya bizim şərtlərimiz əsasında həyata keçirilir və bu, Ali Baş Komandanın növbəti zəfəridir: ***"Bu gün təkcə bizim tələbimizlə heç bir başqa, necə deyərlər, vasitəyə əl atmadan Qazaxın dörd kəndi bizə qaytarılır. Bir tələbimlə qaytarılır, bax belə də olmalıdır. Bundan sonra belə də olacaq".***

Bizim siyasətimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Hər halda hər kəs bilir ki, Azərbaycan nəyə qadirdir, onun Lideri nəyə qadirdir, ordusu nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir. Heç kim bizim qabağımızda dura bilməz. Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz.

Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası işləri nəticəsində 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyən edilmiş və bununla Azərbaycan Respublikasının Qazax rayonunun 4 kəndinin: Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılının ərazilərinin (6,5 km$^2$) Azərbaycana qaytarılması təmin edilmişdir. Mayın 24-də Azərbaycan Respublikasının Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin əraziləri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürülüb.

Qazaxın işğaldan azad edilən dörd kəndində artıq Azərbaycanın Dövlət Bayrağı ucaldılıb. Bu isə Azərbaycan Liderinin, onun diplomatiyasının, gələcəyə hədəflənmiş strateji siyasətinin real nəticəsi olmaqla, eyni zamanda Prezident səlahiyyətlərinin icrasına başlamasının 100-cü gününə ən yaxşı töhfədir.

Ölkə başçısının möhtəşəm siyasi analizləri, uzaqgörən strateq düşüncələri, strateji yanaşmaları, bütün mövcud proseslərə ən incə detallarına qədər dəqiq və konkret bələd olması Onun hazırkı dünya siyasətinə, geostrateji vəziyyətə hakimliyi fonunda olduqca aydın mənzərə yaradır. Artıq bütün dünya qəbul etməlidir ki, Qafqaz regionunda vəziyyət dəyişir və bu dəyişikliklərin böyük dərəcədə təşəbbüskarı Azərbaycandır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin dünyanın ən nüfuzlu liderlərindən biri olaraq qəbul edilməsi onun qlobal fəaliyyətinin məntiqi nəticəsidir. Kim nə deyirsə desin, İlham Əliyevin dünya liderlərindən biri olması artıq qəbul edilmişdir. O bunu qəbul etdirdi.

***"Bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq"***, – deyən cənab Prezidentin gördüyü işlər xalqın qarşısında verdiyi sözləri tutmasına ən yaxşı sübut, bu günə qədər görülən işlərin yekun hesabatı idi. Başqa sözlə desək: ***"Mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar!"***

Məmməd BABAYEV

# COP29: Azərbaycanın beynəlxalq miqyasda artan güc və nüfuzunun növbəti təzahürü

*Tarixdə COP*

Bu gün yeni iqtisadiyyata keçidin zəruriliyi təsdiq edir ki, "yaşıl iqtisadiyyat"ın formalaşmasında təbii ehtiyatlar mühüm önəm daşıyır. "Yaşıl iqtisadiyyat" və "yaşıl artım"la bağlı çağırışların əsasında dünyanı narahat edən qlobal problemlərdən biri canlı aləmə təsir edən iqlim dəyişmələridir. Bunun təbii amillərlə bağlı olması ilə yanaşı, insanların təbiətə göstərdiyi təsirlər də az deyil. Bu baxımdan bir çox əhəmiyyətli konfrans və görüşlərdə dünyada mövcud olan ətraf mühit problemlərinin həlli yolları çox ciddi şəkildə nəzərdən keçirilib və mühüm qərarlar, o cümlədən artıq bütün beynəlxalq ekoloji təşkilatların proqram sənədinə çevrilmiş "Dayanıqlı inkişaf" konsepsiyası qəbul olunub. Bu baxımdan Tərəflər Konfransı da (COP) mühüm əhəmiyyət kəsb edir.

COP – Tərəflər Konfransı BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. Hazırda Konvensiyaya üzv olan 198 ölkə var. Tərəflərin hər hansı fərqli qərarı olmazsa, COP-un hər il keçirilməsi nəzərdə tutulmuşdur. Bununla bağlı ilk tədbir 1995-ci ilin mart ayında Almaniyanın Berlin şəhərində keçirilib. COP-a sədrlik isə rotasiya əsasında BMT-nin 5 regionunun – Afrika, Asiya, Latın Amerikası, Karib Hövzəsi və Avropa (Mərkəzi, Şərqi, Qərbi və digər) ölkələrinə keçir. COP-un missiyası konvensiyadan irəli gələn tələblərin, tövsiyələrin icrasına nəzarət etməkdir. Bu tələblər, əsasən, qlobal istiləşmə tempini səngitmək, qlobal istiləşməyə məruz qalan ərazilərin adaptasiyasına dəstək olmaq və 2050-ci ilə qədər "0" – sıfır emissiyaya nail olmaqdır. Bu günə qədər 28 konfrans keçirilmişdir. Sonuncu, COP28 adlandırılan 28-ci konfrans 2023-cü ilin 30 noyabr-12 dekabr tarixlərdə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilmişdir. Konfransda dünyanın 195 ölkəsindən, təxminən, 97 min nəfərdən çox nümayəndə heyəti iştirak etmişdir. Konfransda dövlət rəsmiləri, özəl sektoru təmsil edənlər, elm adamları, tədqiqatçılar, ekspertlər, jurnalistlər və digər maraqlı tərəflər iştirak edir.

*Azərbaycan: COP29-un ev sahibi*

Bu bir reallıqdır ki, Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdən biridir. Cənab İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" əsasında ölkədə bərpa olunan enerji istehsalı siyasətinin strateji təməli də qoyuldu, 5 Milli Prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artım"la bağlı sənəd qəbul edildi. Bu isə yaşıl iqtisadiyyata keçidlə bağlı qarşıya yeni hədəflər qoydu. Bu hədəfləri uğurla icra edən Azərbaycan ötən dövrdə ən böyük layihələrə ev sahibliyi etdi. Onlardan biri də bu il ölkəmizin böyük beynəlxalq tədbirə ev sahibliyi etməsidir. Söhbət BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un bu il ölkəmizdə keçirilməsindən gedir.

Bu qlobal tədbirin məhz Bakıda keçirilməsinə dair qərar bütün dünya ölkələri tərəfindən qəbul edilib. Azərbaycanın təşkilata sədrliyinə dair qərar da məhz Şərqi Avropa Qrupu ölkələrinin yekdil rəyi əsasında verilib. Qeyd etmək yerinə düşər ki, COP29-a ev sahibliyi üçün Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini irəli sürmüşdülər. Ötən il dekabrın 7-də verilmiş birgə bəyanatda Ermənistanın Azərbaycanın xeyrinə öz namizədliyini geri götürdüyünün şahidi olduq. Bundan sonra Bolqarıstan da öz namizədliyi ilə bağlı eyni addımı atdı. Beləliklə, növbəti, COP29 olaraq adlandırılan konfrans bu ilin 11-24 noyabr tarixlərində Bakı şəhərində keçiriləcək. Buna COP28 konfransında iştirak edən 195-dən çox ölkənin yekdilliklə səsverməsi nəticəsində qərar verilmişdir. COP29 çərçivəsində dünyanın təxminən 190-dan çox ölkəsini təmsil edən 80-100 min nəfərə qədər nümayəndə heyətinin qəbul edilməsi gözlənilir. COP29 ölkə tarixində keçiriləcək ən böyük tədbir hesab olunur.

## Prezident İlham ƏLİYEV:



> "Biz uğura uğur əlavə edirik və ən azı həm Azərbaycanda, həm də regionda hər kəs anlayır ki, bunlar təsadüfi hadisələr deyil. Bütün bu işlər düşünülmüş siyasətin, strategiyanın, düzgün taktikanın və siyasətimizin, diplomatiyamızın bir sıra digər aspektləri üzərində qurulub."

COP29 konfransına ev sahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bu missiyaya uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

*Azərbaycanın beynəlxalq aləmdə artan reytinqi və ya COP29-un Azərbaycanda keçirilməsini yaradan tarixi zərurət*

COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar Azərbaycana növbəti dəfə böyük etimad və inamın göstəricisidir. Bu isə Prezident cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin nəticəsidir. Ölkəmiz artıq dünyada söz sahibinə çevrilib. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə ən tutarlı cavabdır.

Bu reallıqdır ki, qələbədən qısa vaxt keçəndən sonra da ölkəmiz beynəlxalq tədbirlərin, eləcə də nüfuzlu idman yarışlarının keçirildiyi məkana çevrildi. Bunun nəticəsidir ki, mötəbər beynəlxalq təşkilatların rəhbərləri öz tədbirlərinin Azərbaycanda keçirilməsini təsadüfən müəyyənləşdirmir. Son illər Azərbaycanın dünyada sabit məkan kimi tanınması da bunun ən bariz nümunəsidir.

Bu il aprelin 24-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda Prezident cənab İlham Əliyev dərin məzmunlu çıxışında dedi: ***"...Biz uğura uğur əlavə edirik və ən azı həm Azərbaycanda, həm də regionda hər kəs anlayır ki, bunlar təsadüfi hadisələr deyil. Bütün bu işlər düşünülmüş siyasətin, strategiyanın, düzgün taktikanın və siyasətimizin, diplomatiyamızın bir sıra digər aspektləri üzərində qurulub..."***

Beynəlxalq təşkilatlara rəhbərlik etməkdə zəngin təcrübə qazanan Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi müxtəlif vaxtlarda bu quruma iki dəfə sədrlik edib. Qoşulmama Hərəkatının sədri olduğu müddətdə həyata keçirilən tədbirlər qurumun üzv dövlətləri tərəfindən yüksək dəyərləndirilib. Mötəbər tədbirlərə uğurlu ev sahibliyi etmək Azərbaycanın beynəlxalq aləmdə olan reytinqini getdikcə artırıb. Bütün bunlar, təbii ki, cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət və diplomatik məharət nəticəsində mümkün olmuşdur.

*"Yaşıl enerji"yə keçid əsas hədəf kimi*

Ölkəmizin bu tədbirə ev sahibi kimi seçilməsi həm də onu göstərir ki, Azərbaycan qlobal səviyyədə iqlim dəyişiklikləri ilə mübarizə aparan dövlət kimi özünü tanıda bilib və beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilib. Tədbirin Azərbaycanda keçirilməsi isə onun bu istiqamətdə daha da tanınmasına və beynəlxalq mövqeyinin möhkəmlənməsinə geniş imkanlar açacaq. Tədbir çərçivəsində Azərbaycanın bərpa olunan enerji mənbələrinin inkişafı, "yaşıl enerji"yə keçid və iqlim dəyişiklikləri ilə mübarizədə qarşısına qoyduğu məqsədlər və bu istiqamətdə gördüyü tədbirlər daha böyük qlobal auditoriyanın diqqətinə çatdırılacaq.

Bu gün Azərbaycanın "yaşıl enerji" təchizatçısına çevrilməyi də əsas hədəflərdəndir. Artıq Azərbaycan Gürcüstan, Macarıstan və Rumıniya ilə Qara dənizin dibindən sualtı kabel vasitəsilə "yaşıl enerji"nin Avropaya ixracı layihəsini icra etməkdədir. Ona görə COP29-un Azərbaycanda keçirilməsi də bu prosesin davamıdır və ölkəmizin "yaşıl enerji"yə keçid və bərpa olunan enerji mənbələrinin inkişafı ilə bağlı qarşısına qoyduğu məqsədlərə çatmasında böyük rol oynayacaq.

Bu il 26 aprel tarixdə Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində COP29-a ev sahibliyi edəcək ölkənin rəhbəri kimi Azərbaycan Prezidenti cənab İlham Əliyevin çıxışı deyilənləri bir daha təsdiq etdi: ***"COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün, həqiqətən, böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət, bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq".***

*COP29 fərqli sessiyası ilə tarixə qovuşa bilər*

Qlobal səviyyədə iqlim dəyişikliyi ilə mübarizədə ən böyük problemlərdən biri kifayət qədər maliyyə vəsaitinin ayrılmamasıdır. Ona görə də Tərəflər Konfransının son iki sessiyasında bu məsələyə xüsusi diqqət ayrılsa da, problemin həlli istiqamətində ciddi irəliləyiş əldə edilməyib. Yeganə əldə edilən nəticə 2022-ci ildə keçirilən COP27-də "İtki və Zərər" fondunun yaradılması olub. Fond daha çox iqlim problemləri ilə qarşılaşmış inkişaf etməkdə olan ölkələrə dəstək vermək məqsədilə yaradılıb. Ona görə də iqlim dəyişiklikləri baxımından həssas olan bu ölkələrin daha çox maliyyə yardımına ehtiyac var.

Tərəflər Konfransının 29-cu sessiyasında gündəmdə əsas məsələlərdən biri maliyyə arxitekturasının islah edilməsi, bu prosesdə özəl sektorun iştirakının artırılması, borc siyasəti və vəsaitlərin ehtiyac kriteriyası üzrə daha ədalətli şəkildə bölüşdürülməsi kimi məsələlər olacaq. Bu baxımdan 2024-cü ildəki sessiya maliyyələşmə problemlərinin həlli üçün daha effektiv həll yollarının tapılmasına görə ən vacib sessiyalardan birinə çevrilə bilər. Bundan başqa, qlobal səviyyədə etibarlı tərəfdaş və liderlik xüsusiyyətlərinə malik olan ölkə kimi Azərbaycan da iqlim dəyişiklikləri ilə mübarizə prosesinin maliyyələşdirilməsinə öz töhfəsini verə bilər. Bu sessiyaya ev sahibliyi etməklə Azərbaycan da, bu mənada, tarixə düşəcək.

*Gözləntilər, hədəflər*

Azərbaycan uzun illər ərzində neft və qaz ehtiyatlarının ixracından əldə etdiyi gəlirləri səmərəli istifadə etməklə öz iqtisadiyyatını inkişaf etdirib və iqtisadi müstəqillik əldə edib. İndi isə bu ehtiyatlar hesabına Azərbaycan qlobal səviyyədə iqlim dəyişiklikləri ilə mübarizəyə töhfə verməklə öz mövqeyini daha da möhkəmləndirə və təsir dairəsini genişləndirə bilər. Eyni zamanda sessiyanın Bakıda keçirilməsi Azərbaycanda özəl sektorun bu prosesə cəlb edilməsi baxımından da əhəmiyyətlidir. Bu da azərbaycanlı sahibkarların qlobal səviyyədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasına şərait yaradacaq.

Eyni zamanda onu da nəzərə almaq lazımdır ki, son illərdə Azərbaycanın həyata keçirdiyi iqtisadi siyasətin əsas məqsədlərinə neft sektorundan asılılığın azaldılması və enerji təhlükəsizliyinin təmin edilməsi ilə bərpa olunan enerji mənbələrinin rolunun artırılması da aiddir. Bu məqsədlərə nail olmaq üçün Azərbaycan "yaşıl enerji"yə keçidə hazırlaşmaqdadır. COP29 tədbiri həmin keçidin daha səmərəli icrası ilə bağlı strategiyaların və görülməsi zəruri olan tədbirlərin müəyyən edilməsi baxımından faydalı platformadır.

Qarabağın sahib olduğu bərpa olunan enerji resursları Azərbaycanın "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" prioritetinin icrasına, qlobal "yaşıl enerji" çağırışlarına cavab verməyə və ətraf mühitin qorunmasına ciddi töhfə verəcək. Bu baxımdan COP29 həm də işğaldan azad edilmiş ərazilərdə görülən işlərin və bu ərazilərin sahib olduğu bərpa olunan enerji mənbələrinin dünya üçün əhəmiyyətinin təbliği baxımından da faydalı platformaya çevriləcək. Cənab İlham Əliyevin fikirləri ilə desək: ***"COP29-un əhəmiyyəti ondadır ki, biz dünyaya söyləyəcək sözlərimizi, həqiqət hekayəmizi olduğu kimi dünyaya çatdıra biləcəyik. On minlərlə qonağın gəlməsi, iki həftə Azərbaycanda olması imkan verəcək ki, hətta ilk dəfə Azərbaycana gələnlər belə vəziyyəti qiymətləndirmək imkanı əldə etsin, bizim planlarımızın nədən ibarət olduğunu bilsin..."***

*Reallıq*

Bu gün Azərbaycan beynəlxalq proseslərə istiqamət verən, yeni və uğurlu təşəbbüslərlə çıxış edən, beynəlxalq aləmdə öz sözünü deyən ölkəyə çevrilib. Azərbaycanın artıq beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində böyük təcrübəsi var və bu da ölkəmizə yetərincə müsbət imic qazandırıb. Bu tədbir Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, "yaşıl iqtisadiyyat"ı nə dərəcədə prioritet sahə kimi gördüyünü bütün dünyaya sübut edəcək. Bu Azərbaycanın nüfuzunun daha da artmasına və ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa və asan çatdırılmasına böyük təkan verəcək. COP29 Azərbaycanın beynəlxalq miqyasda artan gücünün və nüfuzunun növbəti təzahürü olacaq.

**Arzu ABDULLAYEV**
*Naxçıvan Dövlət Universitetinin prorektoru, tarixçi-alim*

# Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə muğam axşamı keçirilib



Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr edilən konsertdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayaraq Azərbaycan Milli Konservatoriyası ilə davam etdirilən əməkdaşlıqdan danışıb. Keçirilən konserti muxtariyyətin 100 illiyinə dəyərli töhfə kimi qiymətləndirən Elbrus İsayev konsert iştirakçılarına xoş ovqat arzulayıb.

Sonra Azərbaycan Respublikasının Xalq artisti, "Şöhrət" və "Şərəf" ordenli professor Mənsum İbrahimov, Azərbaycan Respublikasının Əməkdar artisti Təyyar Bayramov, "Muğam" televiziya müsabiqəsinin qalibləri Günay İmamverdiyeva, Gülzar Fərəcova və Rəvanə Əmiraslanlının ifalarında bir-birindən zəngin xalq mahnıları və muğamlar səsləndirilib.

Dəyərli xanəndələri tarda Azərbaycan Respublikasının Xalq artisti Elçin Həşimov, kamançada Azərbaycan Respublikasının Əməkdar artisti Elnur Əhmədov, nağarada Azərbaycan Respublikasının Əməkdar artisti Kamran Kərimov, zərb alətində Naxçıvan Dövlət Universitetinin tələbəsi, Beynəlxalq müsabiqə Qran-pri mükafatçısı Nəcəf Hacılı, elektro pianoda Naxçıvan Dövlət Universitetinin müəllimi Ziya Fətullayev müşayiət ediblər.

Səsləndirilən ifalar dinləyicilər tərəfindən alqışlarla qarşılanıb.

Sonda xatirə şəkilləri çəkilib.

# Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Milli Konservatoriyası arasındakı nümunəvi əməkdaşlıq əlaqələri mədəniyyət və incəsənət sahəsində öz bəhrəsini göstərir



Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Konservatoriyası arasında yaradılan səmərəli əməkdaşlıq əlaqələrinin nəticəsi olaraq Azərbaycan Milli Konservatoriyasının professor-müəllim heyəti Naxçıvan Dövlət Universitetində ustad dərsləri keçiblər.

Ustad dərslərdə Azərbaycan Respublikasının Xalq artisti, "Şöhrət" və "Şərəf" ordenli professor Mənsum İbrahimov, Əməkdar artist Təyyar Bayramov, Xalq artisti Elçin Həşimov, Əməkdar artist Elnur Əhmədov, Əməkdar artist Kamran Kərimov Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Dövlət Universitetinin Musiqi Kollecinin tələbələrinə ustad dərsi keçərək öz tövsiyələrini çatdırıblar.

Qeyd edək ki, tələbələrlə görüş incəsənət xadimlərində xoş təəssüratlar yaradıb. Elə bu təəssüratla da sənətkarların fikirlərini almaq qərarına gəldik.



***Xalq artisti, professor Mənsum İbrahimov*** fikirlərini bizimlə bölüşərək bildirdi: – Bizim də arzumuz idi yaradılan fürsətdən istifadə edib tələbələrlə görüş keçirək. Azərbaycan Milli Konservatoriyası ilə Naxçıvan Dövlət Universitetinin birgə iş birliyini çalışırıq ki, maksimum dəyərləndirək və burada olan istedadlı uşaqları paytaxta dəvət edək. Çalışırıq ki, xanəndəlik baxımından gənclərin yetişməsində əlimizdən gələn köməyi əsirgəməyək. Əsas məqsədimiz də budur ki, Naxçıvanda olan yaxşı səsə malik gənclərin seçimini edək. Düşünürük ki, yaxşı səsi olan böyüklərlə yanaşı, azyaşlı uşaqların da sayı çoxdur. Bu cür fürsətləri dəyərləndirib onlarla görüş keçirmək istədik. Yaxın gələcəkdə bir neçə günlük də olsa, buraya gəlib rahat şəkildə istedadlı uşaqlarla məşğul olacağıq. Azərbaycanın hər bir bölgəsindən xanəndələr çıxır. İstəyirik ki, Naxçıvandan da yaxşı səs sahibləri, xanəndələr yetişsin. Təəssüf ki, indiyə kimi buraya diqqət az olub. Amma əlimizdən nə kömək gəlirsə, bu cür istedadların inkişafı üçün əsirgəməyəcəyik. Təkcə xanəndəlik deyil, tar, kamança ifaçılarına da dəstək olmalıyıq ki, daha yaxşı inkişaf etsinlər. Onu da vurğulamaq yerinə düşər ki, Naxçıvanda çox gözəl şərait yaradılıb və yaxşı da müəllimlərimiz var. Uşaqlar çox gözəl öyrənirlər. Sadəcə, bir çoxunun yaş ilə əlaqədar keçid dövrü olduğundan onlar üçün müvəqqəti problemdir. Təbii ki, çatışmayan cəhətlər də var. Amma düşünürəm ki, bu görüşlər çox səmərəlidir. Onların gələcək inkişafı üçün də çox önəmli olacaq və biz bunu davam etdirməliyik. Naxçıvandan isə çox xoş təəssüratlar ilə ayrılıram.



***Əməkdar artist Təyyar Bayramov:*** – Naxçıvan Dövlət Universitetinin Konservatoriyasında tələbələrlə çox önəmli bir görüşümüz oldu. Çox ümidverici tələbələr var. Bu əsas verir ki, Bakıdan, yəni Azərbaycan Milli Konservatoriyasından bizim ustad müəllimlərimiz gəlib bu tələbələrlə görüşsünlər, onlara dəstək olsunlar. Ümid edirik ki, bu öz bəhrəsini yaxın zamanlarda verəcək. İncə məqamlar var ki, bu da tələbələrin özündən



asılıdır. Biz də çalışırıq ki, ustadlarla birgə bu uşaqlara stimul verək. Və düşünürəm ki, bu istedadlı gəncləri arasıra efirlərə çağırsalar, üzərlərində daha çox çalışıb, daha da məsuliyyət hiss edib daha yaxşı nəticələr əldə edə bilərlər. Bundan sonra onlardan bəhrə də götürmək olar. Onu da qeyd edim ki, muxtariyyətin 100 illiyinə həsr olunmuş konsert proqramından özümüz də çox böyük zövq aldıq. Tamaşaçılara da öz minnətdarlığımızı bildiririk ki, alqışları ilə yol yorğunluğumuzu hiss etmədən çıxış edə bildik.

***Xalq artisti Elçin Həşimov:*** – Əvvəla, mən Azərbaycan Milli Konservatoriyasının və Naxçıvan Dövlət Universitetinin rəhbərliyinə möhtəşəm səviyyədə konsert,



əlavədən də ustad dərsləri təşkil etdiklərinə görə dərin təşəkkürümü bildirirəm. Çünki buna böyük bir ehtiyac var idi. Bildirim ki, çox möhtəşəm konsertimiz keçdi. Fürsətdən istifadə edib o cür gözəl alqışlara görə bütün Naxçıvan tamaşaçılarına təşəkkürümü bildirirəm. Bu Azərbaycan musiqisinə verilən bir dəyərdir. Mən düşünürəm ki, biz tez-tez Naxçıvana gəlməliyik. Çünki biz o istəyi, alqışları gördük və sevə-sevə də gələcəyik. O ki qaldı bugünkü bizim ustad dərsimizə, yoldaşlarımın bildirdiyi kimi, həqiqətən də, buna bizim çox ehtiyacımız var. Yəni biz bir-birimizdən öyrənirik. Bu fikirlərin də mübadiləsidir və əlavədən də müsbət mənada bir təkandır. Naxçıvandan həmişə tar ifaçıları çıxıblar və gələcəkdə də bu mütləq davam etməlidir. Bu cür görüşlərin ardı-arası kəsilməməli, əksinə, artmalıdır. Daha da ciddi işlər görməliyik ki, istedadlı gənclərimizin sayı daha da çoxluq təşkil etsin.

***Əməkdar artist Elnur Əhmədov:*** – Naxçıvan mənim ən sevdiyim şəhərlərdən biridir. Doğulduğum Zəngilan rayonunun Məmmədbəyli kəndi ilə Ordubadın əhatə olduğu dağlar bənzərlik təşkil edir və məni özünə daha da bağlayır. Naxçıvanda olmağım bu səbəbdən də mənə bir ayrı xoş təəssüratlar bağışlayır. Təşkil olunan konsert proqramına və ustad dərslərə görə təşəkkürümü bildirirəm. Hörmətli rektorların birgə təşəbbüsünün nəticəsində bu cür gözəl konsert baş tutdu. Şəxsən öz adımdan bütün naxçıvanlıları muxtariyyətin 100 illiyi münasibətilə təbrik edirəm. Ustad dərslərə gəldikdə isə etiraf edim çox ürəyim açıldı. Onsuz da bilirdim ki, burada yaxşı müəllimlər var, lakin bu qədər ifaçıların olması məni sevindirdi. Sinif otağına daxil olanda təəccübləndim və bildirim ki, gözlərim yaşardı. Tələbələrə də dedim ki, haradasa yaxşı bir kamança ifaçısı görəndə, hansısa bir uşağın əlində kamança alətini görəndə istəyirəm ki, ürəyimi ona bəxş edim. Bu cür təşkilatçılıqlar isə bizim milli musiqimizin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunmasıdır. Dövlətimizə dərin minnətdarlığımı bildirirəm ki, muğam müsabiqələri olmasaydı, xanəndələr yetişməsəydi, tar-kamança ifaçıları da bu qədər yetişməyəcəkdi. Bu isə bizim musiqimizin qələbəsi deməkdir.



***Əməkdar artist Kamran Kərimov:*** – Əvvəla, Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibətilə bütün naxçıvanlıları təbrik edirəm. Konsert proqramından sonra ustad dərslərə keçildi. Burada çox istedadlı, diqqətcil tələbələrlə görüşdük. Xüsusi qeyd edim ki, hər bir bölgənin özünəxas gözəl, xoş cəhətləri var. Naxçıvanlılar haqqında onu deyə bilərəm ki, istər budəfəki, istərsə də bundan əvvəl verdiyimiz konsertlərdən o qənaətə gəldim ki, naxçıvanlılarda musiqi duyumu çox gözəl formalaşıb və bu bizə zövq verdi.



✍ **Aidə İBRAHİMOVA**

# Kükü kənd məktəbində akademik Kamal Abdulla ilə görüş keçirilib




Mayın 23-də Şahbuz rayon Kükü kənd tam orta məktəbində Azərbaycan Dillər Universitetinin rektoru, akademik, Xalq yazıçısı Kamal Abdulla ilə görüş keçirilib.

Görüşdə iştirak edən qonaqları salamlayan direktor Mais Məmmədov bu il 100 yaşı qeyd olunan Kükü kənd tam orta məktəbinin qədim ənənələrə sahib oduğunu, Şahbuzun ucqar dağ kəndi olmasına baxmayaraq, burada yaşayan insanların elmə, təhsilə yüksək maraq göstərdiyini, kəndin yetirmələri arasında çox sayda tanınmış adamların olduğunu qeyd edib. Məktəbin son illərdəki uğurlarından da bəhs edən direktor qeyd edib ki, məzunlarının ali məktəblərə qəbul göstəriciləri ilə Kükü kənd tam orta məktəbi hər il təkcə Şahbuz rayonu üzrə deyil, həm də Naxçıvan Muxtar Respublikasının məktəbləri arasında ən yaxşı göstəricilərə malik olub. Məktəbin yetirmələri arasında ölkə və muxtar respublika birinciləri, "Qızıl" və "Gümüş" medallılar, Prezident təqaüdçüləri vardır.

Görüşdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifələrinin icraçısı, nazir müavini Elxan Nəcəfov məktəb kollektivini və şagirdləri təbrik edərək son dövrlərdə Naxçıvanda təhsil sahəsində aparılan islahatların əhəmiyyətini vurğulamış, yubilyar məktəblərin tarixinin yenidən vərəqlənməsi üçün belə tədbirlərin əhəmiyyətini qeyd etmişdir.

Görüşdə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev bu görüşün baş tutması üçün təşəbbüs etdiyinə görə tanınmış alimə təşəkkür edərək Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Dillər Universiteti arasında sıx əlaqələr olduğunu qeyd etmiş, bu ali təhsil ocağının rektoru ilə birgə yubilyar Kükü məktəbində olmaqdan məmnunluq ifadə etmişdir.

Yüzillik yubileyi ərəfəsində Kükü kənd tam orta məktəbində görüş keçirməkdən olduqca məmun qaldığını ifadə edən akademik Kamal Abdulla pedaqoji kollektivə və şagirdlərə yubilyar olmaları münasibətilə ən səmimi təbriklərini çatdıraraq uzun illər əvvəl bu kəndlə bağlı xatirələrindən danışıb.

Sonda tanınmış alim hədiyyələrini məktəb kitabxanasına təqdim edib, xatirə şəkilləri çəkilib.

✍ **Əli CABBAROV**



*“Şərq qapısı” qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Ordubad rayonunun Unus kəndindən olan şəhidimiz Nihat Quluzadənin anası Məstan Quliyevanın, Babək rayonunun Şəkərabad kəndindən olan şəhidimiz Allahyar Telmanlının anası Nuriyə Əkbərovanın və Ordubad rayonunun Darkənd kəndindən olan şəhidimiz Saday Məmmədəliyevin anası Məhəbbət Məmmədəliyevanın övladları haqqında xatirələri yer alıb.*

# 100 ilin qəhrəmanları

## Nihat Qasım oğlu Quluzadə

*(24.01.1997-19.09.2023)*

### Xankəndiyə bayraq sancan igid





Nihat çox sakit uşaq idi. Sən demə, sakit, məsum uşağın daxilində bir qəhrəman var imiş. O qəhrəman ki Xankəndiyə üçrəngli bayrağımızı sancanlardan oldu. O qəhrəman ki Ali Baş Komandanının rəhbərliyi ilə Azərbaycanın bütövlüyünü təmin edənlərdən oldu.

O qədər səliqəli idi ki, həmişə əyni təmiz qalardı. Hər dəfə müəllimləri bizi gördükdə onun məktəbdə necə nümunəvi uşaq olduğundan danışardılar. Hərbi liseydə təhsil alanda da hər bir müəllimi, komandiri onun haqqında həmişə razılıq edərdilər. Hətta akademiyada da təhsil alanda iki dəfə təşəkkür alıb. Hər dəfə atasına zəng vurub belə uşaq böyütdüyü üçün minnətdarlıq edirdilər.

Şəhid olduqdan sonra Nihatın tabeliyində olan əsgərlər bizimlə görüşdülər. Onun əsgərlərə olan qayğısından danışırdılar.

Neçə dəfə məzuniyyətə gəldi, bir kəlmə olsun, işindən danışmadı. Şəhid olduğu günə qədər biz onun xidmət etdiyi hərbi hissənin yerini də bilmədik. Bəzən atası soruşanda deyirdi, ay ata, onlar başqa işlərdir. Sən o haqda bilməli deyilsən. Hərbi sirri o qədər qoruyurdu Nihat.



Hələ hərbi liseydə oxuyan zaman Qarabağdan danışardıq. Deyirdim, bu proses 25-30 il çəkər. Oğul, yaxşı hərbçi ol. Çünki o dövr sizin vaxtınıza düşəcək. Deyirdi, ana, qisasımızı alacağıq.

Nihat II Qarabağ müharibəsində qazi oldu. Döyüş yoldaşını mərmi yağmurundan çıxaran zaman yaralanmışdı. Amma yenə də xidmətinə geri qayıtdı. Naxçıvana qayıtdıqda toy-bayram etdik. El-oba onu çox təmtəraqlı qarşıladı. Reportajlarının birində deyir ki, Tərtərə ilk yolu açan biz olmuşuq.

Demə, şəhidlik mərtəbəsi 3 ildən sonra olacaqmış. Özünü şəhidliyə hazırlayırmış. 2020-ci ildə qayıdışı kimi olmadı 2023-cü ildəki qayıdışı. Çox ağır oldu. Bu dəfə də Nihat çox gözəl qarşılandı. Həm dövlət nümayəndələri, həm də el-oba tərəfindən.

Atası ilə hey dərdləşərdi. Atası da, mən də oğlumuzla fəxr edirik. Kaş iki oğlumuz olardı. Vallah, onda heç ağlamazdıq. İndi də peşman deyilik. Nə xoş bizim halımıza ki balamız Xankəndiyə bayraq sancıb. Bu qəhrəmanlıq hər kəsə nəsib olmur. Nə xoş bizim halımıza ki Nihat kimi qəhrəman balamız var. Vətənimizin var olması üçün şəhidimiz olmalıdır. Vətən sağ olsun! Sağ olsun ki Nihat kimi oğullarda daim yaddaşlarda yaşasın.

## Allahyar Elman oğlu Telmanlı

*(01.09.1994-09.10.2020)*

### Qəlblərdə yaşayan şəhidim





Allahyargil iki qardaş olublar. Allahyar tam başqa xüsusiyyətli oğlan idi. Məni hədsiz çox sevirdi. Çox da qoçaq oğlan idi. Balaca vaxtından hərbçi olmağa can atırdı. Çox həvəsli idi. Heydər Əliyev adına Hərbi Liseyə də öz istəyi, arzusu ilə getdi. Burada da, Bakıda da təhsil aldığı müddətdə savadı, çevikliyi ilə hamıdan fərqlənirdi.

Allahyar qaydasız döyüş üzrə idmançı idi. Hərbiyə o qədər bağlı idi ki, bu idman növünü xüsusilə seçmişdi.

Allahyar 2016-cı il Aprel döyüşlərində də aktiv iştirak etmişdi. Hətta başından yaralanmışdı. Uzunmüddətli müalicədən sonra yenidən hərbi xidmətə qayıtdı. Vətən sevgisi bir an olsun Allahyarı tərk etmədi. Qazi olmasına baxmayaraq, yenidən ordu sıralarına geri qayıtdı.



Müharibə olacağını bilən kimi hərbi hissədə olan bütün mülki geyimlərini bura, evə göndərdi. Dedim, bəs sən paltarsız qalacaqsan? Dedi, ana, lazım olsa, mən səndən istəyəcəyəm. Demək istəyirmiş ki, müharibə olacaq.

Sentyabrın 23-ü mənə zəng vurdu. Dedi, ana, qardaşımı hərbiyə aparmayıblar? Dedim, yox, evdədir. Amma gedib adını yazdırıb ki, ehtiyac olsa getsin. Qardaşını çox istəyirdi. Elə hey deyirdi qardaşımı evləndir toyunu görüm. Deyirdim ki, bəs sən evlənməlisən, qərib yerdəsən, yemək-içmək hazırlayan lazımdır. Deyirdi, ana, yox, qardaşımı evləndir. Bu dəfə dedim ki, sənə qız tapmışam gəl evləndirəcəyəm. Dedi, ana, dekabrda gələcəyəm. Balam dekabrda yox, oktyabrda şəhid gəldi.

Sentyabrın 26-sı zəng vurdum. Çox səs-küy gəlirdi. Dedi, ana, mənim başım qarışıqdır. Mən özüm sizi yığacağam. Dedim, yaxşı ana qurban. O dəqiqə başa düşdüm ki, müharibə gedir.

Oktyabrın 8-i mühasirəyə düşürlər. Hadrutda məzarlıqda balamı snayperlə vurublar. Şəhid olan günü dostu ilə danışıb. Deyib, mən şəhid olacağam. Ağır əməliyyatdır. Bundan sağ çıxa bilmərik. Anamı taparsan. Anam ağlamayacaq, çünki o mənim kimi igid övlad böyüdüb.

## Saday Rza oğlu Məmmədəliyev

*(01.03.1998-06.11.2020)*

### Onunla hər kəs qürur duyur



Saday ailəyə çox bağlı oğul idi. Füzuli işğaldan azad olunanda zəng vurdu ki, ata, mənim ayım tamam oldu. Əməkhaqqını alarsan. Çünki əməkhaqqı kartını atasına verib getmişdi. Heç müharibəyə gedəndə də bizə demədi. Bibisinin qızına zəng vurub deyir ki, atam-anam bilməsin. Mən atama zəng vurub deyəcəyəm ki, növbədə qalmışam.

11 oktyabrda polkovnik Tehran Mənsimovun müşayiəti ilə buradan getdi. Müharibədə ayağından yaralanır. Yoldaşları deyir ki, get ayağına baxsınlar. Amma etiraz edir.



Deyir ki, Şuşaya çatmışıq, zəfər çalmışıq. Şuşaya bayrağı sancaq, sonra gedərəm.

Nənəsinə deyirdi, istədiyim var. Qız da 11-ci sinifdə oxuyurdu. Elə hey deyirdik, elə qız istə ki, səni tez evləndirək. Elə bil içimizə doğmuşdu ki, nə isə olacaq.

Füzuli işğaldan azad olunduqdan sonra evə zəng vurdu. Çox sevincli idi. Dedi, televizoru açın təzə xəbər eşidəcəksiniz. Televizoru açdıq. Füzuli işğaldan azad edilmişdi. Nənəsi dedi, gedək qızı alaq. Dedi, nənə siz bilmirsiniz burada nələr olur. Mən özümə qurban demişəm. Həyətə girim, qurbanımı kəsib axşamı mənə elçi gedərsiniz.

Hərdən deyirəm kaş Saday evli olardı. Biz bu gün varıq, sabah yoxuq. Evli olardı, ailəsi Sadayı yaşadardı. Amma Saday bu gün hamımızın qəhrəmanıdır. Onu hər kəs qəlbində yaşadır.

Saday heç vaxt evindən ayrı qalmadı. Bibisigil bizimlə eyni həyətdə yaşayır. Deyirdilər, gəl burada qal, deyirdi ki, mən evimdən ayrı qalmaram. Atası Rusiyada yaşayıb işləyirdi. Deyirdi, gəl bura, Saday deyirdi ki, mən evimdən ayrı qalmaram. Yəni evə, ailəyə bu qədər bağlı idi.

Saday noyabrın 6-sı Şuşa qalasının ətrafında səngərdə başından vurulur. Orada da şəhid olur. Saday bağlı olduğu ailəsini tərk edib




getdi. Amma yenə də qürurluyam. Qürurluyam ki, övladım qəhrəmandır! Qəhrəmanlar isə heç vaxt ölmürlər. Təsəllim isə odur ki, indi Sadayla təkcə ailəsi yox, hər kəs qürur duyur.

# Azərbaycanın döyünən ürəyisən, Naxçıvanım!



Nurüzlü diyarım, aldığım nəfəsim, ülviyyətim, vüqarımsan, Naxçıvanım. Hər qayan, hər zərrən bir tarixdən soraq verir, Naxçıvanım. Qoca Şərqin qapısında nə qədər məğrur dayanmısan. Hər qarışın qüdrətindən, əzəmətindən ürəkdolusu söhbət açır, ulu diyar! Sən mənim qürur yerimsən. Sən mənim küreyimi söykəyəcəyim ən uca dağımsan. Necə də xoşdur sənin torpağında böyüyüb boya-başa çatmaq. Təmiz havanı udmaq, suyundan damla-damla içmək necə xoşbəxt edir insanı... Bilirsənmi, səni qarış-qarış gəzdikcə cənnətdə olduğunu hiss edir insan.

Sən dünyaşöhrətli lider Heydər Əliyevi bu torpağa yetirən diyarsan, Naxçıvanım. Sən Vətən həsrətli Heyran xanımın, maarif fədaisi Məhəmməd Tağı Sidqinin, ölməz sənətkar Cəlil Məmmədquluzadənin, tarixi romanlar müəllifi Məmməd Səid Ordubadinin, böyük kimyaçı-alim Yusif Məmmədəliyevin və digər həmişəyaşarların vətənisən, Naxçıvanım. Məmləkətim qoynunda bir "çinar" ucalır. Bu "çinar"ın göylərə bərq vuran budaqlarında Nəsirəddin Tusi kimi elm xadimi, Hüseyn Cavid poeziyası, "Molla Nəsrəddin" adı ilə güldürən və gülə-gülə də düşündürən Mirzə Cəlil satirası yaşayır.

İgid oğullar yetirən qədim diyar. 44 gün ərzində 30 illik Qarabağ həsrətinə son qoyan oğullar içərisində olan bu torpağın yüzlərlə igidi ilə necə qürur duymasın insan? O oğullar ki yaramıza məlhəm oldular. O oğullar ki torpaqlarımızın azadlığını canları bahasına yazanlardan oldular.

Azərbaycanın ayrılmaz parçası, beşminillik tarixin ərməğanı, qədim mədəniyyət ocağı, müqəddəs bir məkansan, məmləkətim. Vətən təəssübünü hər şeydən üstün tutan, dağları kimi məğrur olan naxçıvanlılar zaman-zaman hər qarış torpağını göz bəbəyi kimi qoruyub, onun yadelli tapdağına çevrilməsinə yol verməyiblər. Bir vaxtlar öz əzəmətli keçmişini yalnız tarixi abidələrlə yaşadan Naxçıvanım bu gün gözoxşayan bir diyara çevrilib.

Qədim diyar, sən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol keçsən də, xalqımızın zəngin mədəni irsini layiqincə yaşadaraq ölkəmizin ictimai-siyasi həyatında əvəzsiz rol oynamısan.

Muxtariyyətinin yaradılması isə Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsi olub, əziz Naxçıvanım. Bu 100 ilin iki mərhələsi xüsusilə çətin və mürəkkəb dövr olmuşdur. Bunlardan biri 1920-1924-cü illəri əhatə edən muxtariyyətin yaranması, digəri isə 1990-1993-cü illərdə muxtariyyətin qorunub saxlanıldığı dövrdür.

1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaradılması bu qədim diyarın gələcək müqəddəratının həlli, ölkəmizin ərazi bütövlüyünün təmin olunması baxımından çox mühüm siyasi əhəmiyyətə malikdir. Bu mənada, Ulu Öndər Heydər Əliyevin Naxçıvanın olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi muxtariyyəti böyük tarixi nailiyyət adlandırması təsadüfi deyil.

Bəli, Naxçıvanın muxtariyyəti, sözün əsl mənasında, xalqımızın və dövlətimizin tarixi nailiyyətidir. Bu muxtariyyət imkan verdi ki, Azərbaycan xalqının çoxəsrlik arzuları reallığa çevrilsin, əcdadlarımızın izi bu torpaqdan silinməsin. Ulu Öndər Naxçıvanın muxtariyyət statusu əldə etməsinin tarixi əhəmiyyətini və bu sahədə beynəlxalq müqavilələrin rolunu qiymətləndirərək deyirdi: ***"Naxçıvanın muxtariyyəti tarixi hadisə olubdur. Bu, çətin bir dövrdə böyük bir mübarizənin nəticəsidir. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".***

Muxtariyyət dövründə ikinci çətin mərhələ isə 1990-cı ildə Naxçıvanın Ermənistan tərəfindən blokadaya alınması olmuşdur. Həmin dövrdə Naxçıvan Ümummilli Liderimizin də dediyi kimi: ***"Taleyin ümidinə buraxılmış tənha bir adanı xatırladırdı".*** Bu gündən 33 il əvvəlki tarixə nəzər saldıqda açıq şəkildə görmək olur ki, Ulu Öndər o zaman Naxçıvana qayıtmasaydı, Naxçıvanı daha çətin günlər gözləyirdi. Lakin Ulu Öndərin diqqət və qayğısı, himayəsi, yerli potensialın hərəkətə gətirilməsi ilə qədim diyar blokada şəraitində yaşadı və inkişaf etdi.

Doğma yurdum, sən hər zaman milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanması və möhkəmlənməsində müstəsna xidmətlər göstərmisən.

Sovetlər birliyinin süqutundan sonra Heydər Əliyevin muxtar respublikaya rəhbərlik etdiyi dövrdə ölkədə ilk dəfə Naxçıvanda başlanan aqrar islahatlar uğurla həyata keçirildi. Bu dövrdə mövcud sənaye müəssisələri özəlləşdirildi və yenidən quruldu. Yerli ehtiyatlara əsaslanan müasir istehsal sahələri yaradıldı. Naxçıvan şəhərində, rayon mərkəzlərində, yaşayış məntəqələrində əsaslı quruculuq işlərinə başlanıldı. Sosial-mədəni obyektlər, yaşayış binaları təmir və bərpa edildi, yeni obyektlər tikildi. Təhsil, səhiyyə və digər sahələrin inkişafı prioritet vəzifəyə çevrildi. Əhalinin elektrik enerjisi, qaz, içməli su problemləri tədricən aradan qaldırıldı. Kommunikasiyalar təzələndi, genişləndirildi. Muxtar respublikanın etibarlı müdafiəsi təmin olundu, hərbi quruculuq məsələləri diqqət mərkəzində saxlanıldı.

Görülmüş işlərin əsas qayəsi ölkəmizin hərtərəfli tərəqqisinə, əhalinin maddi rifah halının, yaşayış səviyyəsinin daha da yaxşılaşmasına yönəlmişdir. Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həllivacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafına zəmin yaratmışdır.

Azərbaycana ikinci dəfə rəhbərliyi illərində Ulu Öndər Naxçıvan Muxtar Respublikasını heç vaxt diqqətdən kənarda qoymadı. O, blokada şəraitində olan bu diyarın yaşaması və yaratmasına hərtərəfli qayğı ilə yanaşdı.

Qürur hissi ilə deyə bilirik ki, dahi rəhbərin müəyyənləşdirdiyi strateji hədəflər uğurla həyata keçirilib, muxtar respublika Ulu Öndərin arzuladığı bir diyara çevrilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərdiyi qayğı nəticəsində isə Naxçıvan Muxtar Respublikası yeni hədəflərə doğru irəliləməkdə, Naxçıvanın daha parlaq gələcəyi üçün mühüm layihələr həyata keçirilməkdədir. Cənab İlham Əliyev prezidentliyi dövründə qədim diyarımızın sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair müxtəlif sərəncamlar, Dövlət proqramları imzalamışdır. Son 10 il ərzində cənab Prezidentin sərəncamları əsasında Naxçıvan Muxtar Respublikasına 688 milyon manatdan çox investisiya vəsaitinin ayrılması dediklərimizin əyani ifadəsidir. Ölkə başçısının müvafiq Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi cənab Prezidentin muxtar respublikaya diqqətinin göstəricisidir. Proqramın məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi və ölkə iqtisadiyyatına tam inteqrasiyasının təmin olunmasıdır. Proqramın icra edilməsi məqsədilə 249 milyon manat vəsait ayrılmışdır.

Ölkə başçısının ötən ilin dekabrın 30-da Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamı sevincimizi birə-beş artırdı. Sərəncamda deyilir: *"Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri – Eldənizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir".*

Nə xoş bizlərə ki Naxçıvan muxtariyyətinin 100 illiyini müstəqil və bütöv Azərbaycanda qeyd etmək nəsibimiz oldu. Nə xoş bizlərə ki bizim olan torpaqlara qayıda bildik. Nə xoş bizlərə ki Ali Baş Komandanın səyi nəticəsində Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa edə bildi. Şanlı



Qələbəmiz bizim iradəmizi, xalqımızın əzmini bütün dünyaya bəyan etdi. 2020-ci ildə əldə etdiyimiz Böyük Zəfərdən sonra imzalanan üçtərəfli bəyanat və həmin bəyanata cənab İlham Əliyevin təkidi ilə Naxçıvanı ölkə ilə birləşdirən maneəsiz dəhlizin açılması müddəasının salınması uzaqgörən siyasətin nəticəsidir. Zəngəzur dəhlizinin açılması ilə Naxçıvan həm də bizim üçün Avropaya qapı, Türk dünyası üçün isə ümid bağına çevriləcək. Bütün maneə cəhdlərinə baxmayaraq, Zəngilan-Ordubad dəmir yolu xətti və bütövlükdə, Zəngəzur dəhlizinin açılması üçün real zəmin formalaşıb. Məhz bunu əsas gətirən siyasətçilərin fikrincə, Zəngilanı Naxçıvanla birləşdirəcək 40 kilometrlik Zəngəzur dəhlizi mütləq açılacaq. Ölkə rəhbərinin dediyi kimi: ***"Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək. Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq. Ermənistanın revanşist əhval-ruhiyyəli davranış tərzi isə yalnız Ermənistanın özünə ziyan verəcək. Ali Baş Komandanımızın da qeyd etdiyi kimi, "Azərbaycanın "dəmir yumruğ"u hər zaman onların başı üzərindədir və hər an düşməni əzməyə hazırdır".***

Qalib dövlətin bir parçası olan Naxçıvan, sən artıq bir əsrdir ki, muxtariyyətini qorumusan. Ulu diyar, daim var ol... Sənə var olmaq yaraşır, məmləkətim. Cənnətin qapısı, Azərbaycanımın döyünən ürəyi, əbədi ünvanımsan, Naxçıvanım. Şair çox gözəl deyib:

*Bu dünya bir cənnətdirsə,*
*O cənnətin qapısı sən!*
*Varım, yoxum-nəyim varsa,*
*Cümləsi sən, hamısı sən!*
*Yaşa xoşbəxt anım mənim-*
*Əbədi ünvanım mənim-*
*Doğma Naxçıvanım mənim!!!*

**Nuray ƏSGƏROVA**

*Məqalə "Şərq qapısı" qəzetinin elan etdiyi "Naxçıvan 100 ildə" yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür*

# Əlincəçay mahalının Xanəgahı...



Zəngin tariximizin izlərini özündə yaşadan qədim yaşayış yeri. O Xanəgah ki əsrlərin sınağına sinə gərərək tarixi qala rolunu oynamış, dövrümüzdə də mərdlik, mübarizlik simvolumuza çevrilmişdir. Xanəgah kəndi, adından da göründüyü kimi, dini ritualların keçirildiyi və dini elmlərlə bağlılığı olan kəslərin ibadətgahına çevrilmiş müqəddəs bir məkandır. Kəndə daxil olarkən Əlincəqalanın əzəməti, yamaclardakı məxməri göy otlar və eləcə də uzaqdan Günəş kimi parlayan Şeyx Nəiminin türbəsi, səfalı havası və insanları oraya üz tutan qonaqları nağıllardakı kimi xeyirxahlıqla salamlayır. Burada yaşayan tarix sanki insanı hər qarışda keçmişə boylanmağa vadar edir. "Səni bu hüsni-camal ilə, kamal ilə görüb, qorxdular həqq deməyə, döndülər insan dedilər", – deyən haqq şairimiz ölməz Nəsiminin ustadı Fəzlullah Nəiminin izləridir kəndin hər köşəsi...

Orta əsrlər dövründə Azərbaycanın bir çox bölgəsində, o cümlədən bu yaşayış məntəqəsində İslam ayinlərinə hörmət və ehtiram özünü çox ciddi şəkildə göstərməkdədir. Maddi-memarlıq abidələri olan daş tikililərimizin bir çoxu bunun ən bariz göstəricisidir. Belə ki, həmin dövrlər təsəvvüf və irfan olduqca nüfuzlu bir dini-ideoloji, ictimai-tarixi, əxlaqi-mənəvi və əqli-məfkurəvi cərəyan olmaqla təzadlı, özünəməxsus çoxşaxəliliyi ilə mürəkkəb irəliləmə yoluna cığır açmışdır. Elmi-fəlsəfi baxış nöqteyi-nəzərindən kəskin mübahisə və mücadiləyə baxmayaraq, bu yoldan mənəvi qida alan İslam alimləri zəngin bir irfan məktəbinin təməlini qoymuşlar. Xanəgah kəndi, demək olar ki, Azərbaycanda çox yayılmış dini cərəyanlardan olan hürufilik fəlsəfəsinin əsas dayanıqlı məkanlarından biri kimi özünəməxsus bir məktəb rolunu oynamışdır. Bəlkə də, budur Xanəgah kəndinin insan ruhuna mənəvi rahatlıq gətirən ab-havası... Bu doğma diyarı gəzdikcə tarixi tikililərlə sanki canlı ünsiyyət qurub söhbət edirsən.

Kənddəki orta əsrlərə aid tarix-memarlıq abidəsi ilə qarşılaşırıq. Qədim yurd yerinin ən yaşlı sakinləri buranın adını "Xan hamamı" kimi bildiklərini nəzərimizə çatdırır. Lakin elmi mənbələrə, alim və tədqiqatçılarımızın araşdırmalarına nəzər saldıqda məlum olur ki, 1978-ci ildə torpağın altından aşkar edilmiş bu abidə vaxtilə burada yaşamış dərviş təriqətlərinə mənsub olub. Əlincəqalanın gündoğan hissəsindən bir az aralıda yerləşən bu qədim tikili, planda dördkünc formada olmaqla yan tərəflərdən divarla əhatələnərək üstü bişmiş qırmızı kərpicdən günbəzlə bağlanıb. Şərq memarlıq xüsusiyyətlərini özündə əks etdirən binanın günbəzinin orta hissəsi də özünəməxsus, fərqli formadadır. Belə ki, tikilinin günbəzi üzərində həm havalandırma, eləcə də Günəş işığının içərini daha da aydınlatması üçün nəzərdə tutulmuş kiçik bir dördayaqlı balaca günbəz yerləşir. Qeyd edək ki, bir çox qədim hamamların günbəzlərinin üzərində bu cür tikiliş formasına rast gəlindiyindən yerli sakinlər də buranın hamam olduğunu düşünürlər. Alimlərin araşdırmalarına görə bu tip xüsusi günbəzli tikililər orta əsrlərin "Təkyə" və eləcə də "Zaviyə" adlandırılan dini müəssisələr qrupunu təmsil edirmiş. Buna əsaslanaraq da qeyd etmək olar ki, dərviş təriqətinə mənsub olan şəxslər bu və bunun kimi tikililərdə ömürlərini ibadətə həsr ediblər.

Əməkdar elm xadimi, memar, professor Əbdülvahab Salamzadə və sənətşünaslıq doktoru, professor Kamil Məmmədzadə birgə tədqiqləri zamanı da bu memarlıq abidəsinin XIV əsrə aid olması ehtimalını xüsusi olaraq qeydlərində göstəriblər.

AMEA-nın müxbir üzvü, professor Hacıfəxrəddin Səfərlinin "Əlincəçay mahalının epiqrafik abidələri" kitabında Xanəgahdakı abidələr haqqında geniş məlumatlar verilir. Buna görə də bu qədim kəndin tarixi haqqında elmi araşdırmaları oxuyub məlumatlanmaq yerinə düşər.



Qeyd edək ki, ölkə əhəmiyyətli bu cür tarix-memarlıq abidəsi incə toxunuşlarla bərpasını gözləyərək kənd sakinlərinin xeyir-duası nəticəsində ayaqda durub. Gəlin abidələrimizə sahib çıxaq, tariximizə sahib çıxaq. Bizim olana sahib çıxaq. Sahib çıxaq ki, tarixin bədduasından nəsibimizi almayaq. Yaxşı iz, yaxşı ad, yaxşı irs qoyaq. Əcəminin təbirincə desək:

*Biz gedirik, ancaq qalır ruzigar,*
*Biz ölürük, əsər qalır yadigar.*

✍ **Aidə İBRAHİMOVA**

## Hərbi lisey kursantlarının əl işlərindən ibarət sərgi təşkil olunub



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş Heydər Əliyev adına Hərbi Lisey kursantlarının 101 ədəd rəsm və əl işlərindən ibarət sərgi təşkil olunub.

Tədbirdə ilk olaraq Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş sözü ilə tədbiri açan Naxçıvan Müəllimlər İnstitutunun dosenti, sənətşünas Nizami Alıyev bildirib ki, sərgilənən işlər içərisində həm qrafika, həm də rəngkarlıq əsərləri, eləcə də texniki yaradıcılıq işləri yer tutur. Müxtəlif mövzularda nümayiş olunan işlər arasında vətənpərvərlik mövzusunun üstünlük təşkil etməsi isə bizi daha çox sevindirdi. Biz bu gün şahid olduq ki, kursantlarımız hərbi sirlərlə yanaşı, onlara yaradılan müxtəlif şəraitlərdən istifadə edərək yaradıcılığa da vaxt ayırırlar.

Tədbirdə Heydər Əliyev adına Hərbi Liseyin rəisi Elşad Həsənov çıxış edərək təşkil olunan sərginin kollektivləri üçün sevincli bir hal olmasını vurğulayıb. Hərbi liseyin kollektivi olaraq kursantların vətənpərvərlik ruhunda tərbiyə olunması cəmiyyətimizə, dövlətimizə sağlam və Vətənini sevən gənclərin yetişdirilməsi bizim vacib tapşırığın yerinə yetirilməsi bizi qürurlandırır. Biz bu sərgi ilə həm də onu demək istəyirik ki, təhsilimizin nəticələri, digər göstəricilərimiz artıq bunu sübuta yetirir. Fərəh hissi keçiririk ki, bu gün kursantların düşüncə və bacarıqlarını geniş kütləyə təqdim edirik.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Aparat rəhbəri İlhamə Nəzərova bildirib ki, bu gün Azərbaycanın zabiti olmaq və bu ölkənin hərbi sistemində onun ərazi bütövlüyünü, onun suverenliyini qorumaq üçün inamla irəliləyən hər bir gənc ölkəmizin gənclər siyasətinin ən bariz və uğurlu örnəyidir.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Tahir Məmmədli qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin adını daşıyan hərbi liseyin kursantları nəinki rəsm əsərləri ilə, digər sahələrdə də öndə gedirlər. Onlar mütəmadi olaraq müxtəlif yarışlara qatılıb mükafatlara layiq görülürlər.

Digər çıxış edənlər də kursantların bu gün hərbi sirləri öyrənmələri ilə yanaşı, fərqli yaradıcı istiqamətlərə də nəzər salmalarını yüksək qiymətləndirib, onlara şərəfli yollarında müvəffəqiyyətlər arzulayıblar.

Daha sonra rəsm və əl işləri sərgisində yer alan kursantlara Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin diplom və Fəxri fərmanları təqdim olunaraq sərgiyə baxış keçirilib.

### *İtmişdir*

Şərur rayonu, Mahmudkənd sakini Əliyev Şadət İsa oğluna məxsus JN-782A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Dərvişlər kəndində yaşamış Ağayarov İsmayıl Şükür oğlunun adına verilmiş JN-39A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Didivar kənd sakini Ağayev Zülfəli Səfər oğlunun adına olan JN-272A nömrəli, 10311058 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kənd sakini İsmayılov Vüqar Qəşəm oğlunun adına olan JN-605 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad şəhərində yaşamış Məmmədova Sona Rza qızının adına olan 491 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 59-cu məhəllə, mənzil 39-da yaşayan İsmayılov Valeh Həsən oğlunun adına olan evin 104013018352 reyestr nömrəli, 1222014652 qeydiyyat nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Güntac Şahməmmədli
Dizayner: Tacirə Vəliyeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 151